## ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMU DÜNYADA MULTİKULTURALİZM DƏYƏRLƏRİNİN TƏŞVİQİNDƏ MÜHÜM ROL OYNAYIR

Cənubi Qafqaz regionunun lider dövləti olan, dünyada böyük etimad qazanan və etibarlı tərəfdaş olaraq tanınan Azərbaycan həm də beynəlxalq dialoq və əməkdaşlıq məkanıdır. Regionun siyasi, iqtisadi və humanitar mərkəzi kimi çıxış edən respublikamız sivilizasiyalararası dialoqun inkişafına əhəmiyyətli töhfələr verməklə yanaşı, qlobal əhəmiyyətli mühüm beynəlxalq tədbirlərə uğurla ev sahibliyi edir...



Bax səh. 2

## BEŞİNCİ ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMUNUN PLENAR SESSİYASINDA GƏNCLƏRİN EKSTREMİZMƏ QARŞI MÜBARİZƏDƏ ROLU MƏSƏLƏSİ MÜZAKİRƏ OLUNUB

Mayın 3-də V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində "Gənclər sülh naminə: şiddətli ekstremizmə qarşı əks qüvvənin formalaşdırılması" mövzusunda ikinci plenar sessiya keçirilib. AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva...



Bax səh. 3



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 04 may 2019-cu il, şənbə / № 081 (5456). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Prezident İlham Əliyev Braziliya Milli Konqresi Deputatlar Palatası sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 3-də Braziliya Federativ Respublikası Milli Konqresinin Deputatlar Palatasının sədri Rodriqo Mayanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu vurğulayıb. Dövlətimizin başçısı yüksək səviyyəli səfərlərin əməkdaşlığın müxtəlif sahələri ilə bağlı fikir mübadiləsinin aparılması üçün yaxşı imkan yaratdığını bildirib və parlamentlərarası əlaqələrin ikitərəfli münasibətlərin inkişafına töhfə verdiyini deyib. Prezident İlham Əliyev Braziliya nümayəndə heyətinin böyük tərkibdə Azərbaycana səfərindən məmnunluğunu bildirərək iqtisadi, sərmayə qoyuluşu, turizm, mədəniyyət, kənd təsərrüfatı, aviasiya və digər sahələrdə əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini qeyd edib.

Braziliya Federativ Respublikası Milli Konqresinin Deputatlar Palatasının sədri Rodriqo Maya qəbula görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib. Rodriqo Maya, öz növbəsində, qeyd edib ki, yüksək səviyyəli qarşılıqlı səfərlər əməkdaşlığımızın inkişafında mühüm rol oynayır və parlamentlərarası əlaqələr xalqlarımızın bir-birini daha yaxşı tanımasına xidmət edir. Qonaq ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişaf etdirilməsi, ticarət dövriyyəsinin artırılması üçün böyük potensialın olduğunu deyib.

Söhbət zamanı BMT və digər beynəlxalq təşkilatlar çərçivəsində həyata keçirilən əməkdaşlığın önəmi qeyd olunub.



## Prezidentin iş günü

Prezident İlham Əliyev I və II dərəcə əlilliyi olan şəxslərin, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsil haqqı xərclərinin ödənilməsi haqqında Sərəncam imzalayıb.

## Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının məsul işçilərinin 2019-cu ilin may ayında respublikanın bir sıra şəhər və rayonlarında vətəndaşların qəbulu cədvəli

**14 may 2019-cu il**

1. Qax rayonu
2. Salyan rayonu
3. Şabran rayonu
4. Tovuz rayonu
5. Xocalı rayonu

**22 may 2019-cu il**

1. Şirvan şəhəri
2. Daşkəsən rayonu
3. Füzuli rayonu
4. Xızı rayonu
5. Yardımlı rayonu

Qeyd: Qəbullar şəhər və rayonlarda saat 10:00-da başlayır.

## ADMİU-da akademik Ramiz Mehdiyevin "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabının təqdimatı olub

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (ADMİU) Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin...



Bax səh. 4



## NAZİRLƏR KABİNETİNİN APARATININ İCLASI KEÇİRİLİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında qaldırılan məsələlərlə əlaqədar Nazirlər Kabineti Aparatının iclası keçirilib. Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş nazir Novruz Məmmədov 2019-cu ilin birinci rübündə ölkəmizin...

Bax səh. 4

## İSTANBULDA ÇAMLICA MƏSCİD KOMPLEKSİNİN RƏSMİ AÇILIŞ MƏRASİMİ KEÇİRİLİB

Mayın 3-də İstanbulda 2013-cü il martın 19-da inşasına başlanılan Çamlıca məscid kompleksinin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə rəsmi açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, eyni vaxtda 65 min dindarın ibadət edə biləcəyi, Türkiyənin ən böyük məscidi olan Çamlıcanın cümə namazından sonra rəsmi açılışı olub.

Yerli və xarici dövlət xadimlərinin qatıldığı açılış mərasimində Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov iştirak edib.

İstanbulun yeni rəmzi olan kompleksdə məscidlə yanaşı, 11 min kvadratmetrlik muzey, 3 min 500 kvadratmetrlik sənət qalereyası, səkkiz sənət atelyesi, 3 min kvadratmetrlik kitabxana, min nəfərlik konfrans salonu da var.

Altıminarəli məscidin Malazgirt zəfəri şərəfinə ucaldılan dörd minarəsinin hündürlüyü 107,1 metr, digər ikisinin ki, isə 90 metrdir. Məscidə xüsusi hazırlanmış 17 min kvadratmetrlik xalı döşənib. Məscidin 5 metr eni, 6,5 metr hündürlüyü və 6 ton ağırlığı olan əsas qapısı türk taxta-əl işi sənətinin ən gözəl nümunələrindən biri hesab edilir.



## ƏLİ ƏHMƏDOV: PREZİDENTİN ƏFVİ NƏTİCƏSİNDƏ AZADLIĞA ÇIXAN ƏLİ İNSANOVUN MƏTBUATA VERDİYİ MÜSAHİBƏLƏR ONUN SİMASI VƏ İNSANİ KEYFİYYƏTLƏRİ HAQQINDA TAM TƏSƏVVÜR YARADIR: YALAN, RİYAKARLIQ, XƏYANƏT

"Azərbaycan Prezidentinin əfvi nəticəsində azadlığa çıxan Əli İnsanovun mətbuata verdiyi müsahibələr...

Bax səh. 4

## Milli Məclisin növbəti iclası keçirilib

Mayın 3-də Milli Məclisin növbəti iclası keçirilib. Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov gündəlikdəki məsələləri təqdim etdikdən sonra müzakirələr başlayıb. Əvvəlcə "Normativ hüquqi aktlar haqqında" Konstitusiya qanunu ikinci səsverməyə çıxarılaraq qəbul olunub. Sonra Azərbaycanın İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorunun 2018-ci il üzrə illik məlumatı müzakirəyə çıxarılıb. Məlumatı Azərbaycanın İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatoru, daxili işlər nazirinin birinci müavini Vilayət Eyvazov təqdim edib. Vilayət Eyvazov bildirib ki, transmilli mütəşəkkil cinayətkarlığın təhlükəli növlərindən olan insan alveri...

Bax səh. 5

### V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu başa çatıb

Bakıda "Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında təşkil olunmuş V Ümumdünya Mədəniyyətlərarası...



Bax səh. 3

### V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun iştirakçılarına Azərbaycandakı tolerant mühit barədə məlumat verilib

Xalqımızın minilliklər ərzində formalaşmış tolerantlıq ənənələrini qoruyub saxlamaq, inkişaf etdirmək...



Bax səh. 4

### Heç kim, heç bir qüvvə Azərbaycanla təzyiq, təhdid, diktə dili ilə danışa bilməz

...Ümumiyyətlə, Azərbaycan hazırda dünyada etibarlı tərəfdaş kimi qəbul olunur. Ümummilli Liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi...



Bax səh. 5

### *Pərvin Kərimzadə:* Ölkəmiz dünyada sülhün təmin edilməsinə öz töhfələrini verir

"Bakıda "Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında keçirilən V Ümumdünya Mədəniyyətlərarası...



Bax səh. 5

# Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu dünyada multikulturalizm dəyərlərinin təşviqində mühüm rol oynayır

*__Prezident İlham Əliyev:__ Multikulturalizm bizim üçün həyat tərzidir. Bu söz nisbətən yeni olsa da, biz həmin ab-havada əsrlər boyu yaşamışıq*

*Cənubi Qafqaz regionunun lider dövləti olan, dünyada böyük etimad qazanan və etibarlı tərəfdaş olaraq tanınan Azərbaycan həm də beynəlxalq dialoq və əməkdaşlıq məkanıdır. Regionun siyasi, iqtisadi və humanitar mərkəzi kimi çıxış edən respublikamız sivilizasiyalararası dialoqun inkişafına əhəmiyyətli töhfələr verməklə yanaşı, qlobal əhəmiyyətli mühüm beynəlxalq tədbirlərə uğurla ev sahibliyi edir. Digər tərəfdən, Azərbaycan öz təklif və təşəbbüsləri ilə dünyada sülhün və təhlükəsizliyin möhkəmlənməsinə, ümumbəşəri dəyərlərin, multikulturalizmin təbliği və təşviqinə, qlobal xarakterli problemlərin həllinə dəyərli töhfələr verir. Təsadüfi deyil ki, Bakı Beynəlxalq Humanitar Forumu, Mədəniyyətlərarası Dialoq Forumu, Dini Liderlərin Zirvə toplantısı, Qlobal Bakı Forumu və digər mühüm tədbirlər məhz beynəlxalq dialoq və əməkdaşlıq məkanı olan Azərbaycanda keçirilir.*



### ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMU BƏŞƏRİYYƏT ÜÇÜN AKTUAL MƏSƏLƏLƏRİN SƏMƏRƏLİ MÜZAKİRƏ PLATFORMASIDIR

Mayın 2-3-də paytaxt Bakıda "Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında keçirilən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyəti də bu baxımdan xüsusi qeyd edilməlidir. Azərbaycan hökumətinin təşkilatçılığı, UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, Avropa Şurası və ISESCO-nun tərəfdaşlığı ilə keçirilən Forumda 100-dən çox ölkənin və 30-dan çox beynəlxalq təşkilatın yüksəksəviyyəli rəsmilərinin iştirak etməsi tədbirin önəmini göstərən mühüm faktlardan biridir.

*"Bizim üçün multikulturalizm həm də siyasətimizin mühüm elementlərindəndir. Azərbaycanda multikulturalizm üzrə beynəlxalq mərkəz yaradılıb. Biz bu dəyərləri təşviq edir və multikulturalizmin böyük gələcəyinin olduğunu nümayiş etdiririk"*

Ümumiyyətlə, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda bəşəriyyət üçün aktual olan qlobal əhəmiyyətli məsələlər müzakirəyə çıxarılır, səmərəli müzakirələr - fikir mübadilələri aparılır. Qlobal miqyasda mühüm beynəlxalq tədbirlərdən biri olan bu Forum dünya ictimaiyyətinin diqqətinə mədəniyyətlərarası dialoq, multikulturalizm və tolerantlıq ənənələrinin təşviqi kimi məsələlərin çatdırılması baxımından xüsusi əhəmiyyətə malikdir. Sözügedən tədbirdə də qeyd edildiyi kimi, V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu Qərblə İslam dünyası arasında mədəniyyətlərarası dialoqa mühüm töhfədir. Eyni zamanda, Forumda səsləndirilən fikirlər Azərbaycanın mədəniyyətlərarası dialoqda aparıcı dövlətlərdən biri olduğunu bir daha təsdiq edir.

Yeri gəlmişkən, V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində nitq söyləyən Prezident İlham Əliyev bu məqamlara toxunaraq Forumun nisbətən qısa zaman ərzində cari gündəlikdə duran mövzulardan biri olan mədəniyyətlərarası dialoqun müzakirəsi baxımından qlobal platformaya çevrildiyini bildirib. **"Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu qlobal miqyasda və əlbəttə, bizim ölkəmiz üçün mühüm beynəlxalq tədbirlərdən biridir. Son illər ərzində Azərbaycan çoxsaylı beynəlxalq təbirlərə ev sahibliyi edib. Dünya Dini Liderlərinin Forumunu, ənənəvi Bakı Humanitar Forumunu, yeddi dəfə Bakı Qlobal Forumunu təşkil etmişik. Nizami Gəncəvi Mərkəzi tərəfindən təşkil edilən həmin forum da siyasi inkişaf və mədəniyyət dialoqu mövzularının müzakirəsi üçün çox vacib platformadır. Digər tədbirlər də təşkil edilir və bununla da biz dünya ictimaiyyətinin diqqətini bu mühüm məsələlərə yönəltməyə çalışırıq"**, - deyə Prezident İlham Əliyev vurğulayıb.

### SİVİLİZASİYALARARASI DİALOQUN İNKİŞAFINA XİDMƏT EDƏN "BAKI PROSESİ" BEYNƏLXALQ MÜSTƏVİDƏ OLDUQCA YÜKSƏK QİYMƏTLƏNDİRİLİR

O da qeyd edilməlidir ki, Azərbaycan tərəfindən irəli sürülən təşəbbüslər sivilizasiyalararası dialoqun inkişafına, multikultural dəyərlərin, tolerantlığın təbliğinə mühüm töhfələr verir. Bu kontekstdə "Bakı Prosesi"nin əhəmiyyətini xüsusi vurğulamaq lazımdır. Avropa Şurası və İslam Əməkdaşlıq Təşkilatının üzv dövlətləri arasında əməkdaşlıq üçün unikal platforma olan "Bakı Prosesi" ölkəmiz tərəfindən uğurla davam etdirilir. "Bakı Prosesi"nin əhəmiyyəti beynəlxalq səviyyədə də çox yüksək qiymətləndirilir. Bütövlükdə isə, 2008-ci ildən Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən "Bakı Prosesi" ötən müddət ərzində müxtəlif qitələrdə yaşayan fərqli etnik, mədəni, dini və linqvistik mənsubiyyəti olan ayrı-ayrı insanlar və qruplar arasında qarşılıqlı anlayış çərçivəsində səmimiyyət və hörmətə əsaslanan fikir mübadiləsi üçün müsbət platforma yarada bilib. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: **"Ötən il biz "Bakı Prosesi"nin 10 illiyini qeyd etdik. Bu da bizim fəxr etdiyimiz bir təşəbbüsdür. Yadımdadır, 2008-ci ildə bu təşəbbüs irəli sürülən kimi, o, dərhal beynəlxalq diqqəti özünə cəlb etdi. İlk dəfə məhz Azərbaycan Avropa Şurasına və İslam Əməkdaşlıq Təşkilatına üzv olan dövlətlərin mədəniyyət nazirlərini bir araya gətirdi. 100-dən artıq dövlətin nümayəndəsi Bakıda toplaşdı və əməkdaşlıq perspektivlərini müzakirə etdi. Biz eyni tərkibdə nazirlərin iştirakı ilə daha bir tədbiri 2009-cu ildə təşkil etdik. Bu təşəbbüs "Bakı Prosesi" adlandırıldı və bu gün həmin proses Avropa ilə müsəlman dünyası arasında dialoq üçün mühüm vasitədir".**

Bu gün dünyanın müxtəlif regionlarında, ayrı-ayrı ölkələrində siyasi, dini, etnik zəmində ziddiyyətlər və qarşıdurmalar artır. Bu cür neqativ halların qarşısının alınmasında - aradan qaldırılmasında mədəniyyətlər, sivilizasiyalararası dialoqun təşviqi və inkişafı olduqca mühüm əhəmiyyətə malikdir. Yəni sivilizasiyalararası dialoq, müxtəlif mədəniyyətlər və dəyərlərə malik olan xalqların əməkdaşlığı XXI əsrin strateji prioriteti kimi vacib vəzifə olaraq qarşıda durur. Qürurverici haldır ki, tolerantlıq nümunəsi olan, dünyaya mütərəqqi dəyərlər təqdim edən Azərbaycan mədəniyyətlər arasında dialoq imkanlarının yaradılmasında aparıcı və müsbət rol oynayır.

Bəhs olunan çıxışı zamanı bu məqamlara diqqət yetirən dövlətimizin başçısı **"Həm İslam Əməkdaşlıq Təşkilatı, həm də Avropa təsisatlarına eyni zamanda üzv olan nadir ölkələrdən biri olan Azərbaycan təmasların qurulması və dialoq üçün imkanların yaradılmasında özünün təbii və əminəm ki, müsbət rolunu oynayır. Bizim dialoqa ehtiyacımız var. Mədəniyyət və dinlərarası münasibətlər, siyasi gündəlik, iqtisadi əməkdaşlıq və təhlükəsizlik məsələlərində dialoq zəruridir. Forumun adı belə dialoq adlanır. Yəni, biz məhz bunu dünyaya təqdim edirik və bu təşəbbüs geniş beynəlxalq dəstəyə malikdir"**, - deyə vurğulayıb. Prezident İlham Əliyev, eyni zamanda, qeyd edib: **"Bu gün "Bakı Prosesi" BMT və digər beynəlxalq təşkilatlar tərəfindən dəstəklənir. Əminəm ki, "Bakı Prosesi"nin böyük gələcəyi var".**

Xatırlatmaq yerinə düşər ki, 2008-ci ilin 2-3 dekabr tarixində təşkil olunan Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin konfransına Azərbaycanın təşəbbüsü ilə ilk dəfə olaraq 10 İslam ölkəsi dəvət edilib, beləliklə, mədəniyyət nazirlərinin konfransı yeni bir formata transformasiya olunub. Bu konfransda "Mədəniyyətlərarası dialoqun təşviqinə dair "Bakı Bəyannaməsi" qəbul edilib. "Bakı Bəyannaməsi" ilə sivilizasiyalar arasında dialoqun inkişafını nəzərdə tutan "Bakı Prosesi"nin və bu prosesin inkişafına hədəflənmiş "Sənətçilər dialoq naminə" layihəsinin əsası qoyulub. 2010-cu il sentyabrın 23-də BMT Baş Assambleyasının 65-ci sessiyasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçiriləcəyi elan edilib. 2011-ci ilin 7-9 aprel tarixində isə Bakıda UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Avropa Şurası, Avropa Şurasının Şimal-Cənub Mərkəzi və ISESCO-nun tərəfdaşlığı ilə 1-ci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu təşkil olunub.

*"Bu qəbildən olan forumlar mədəniyyətlərarası dialoq mövzusuna diqqəti cəlb edir, yeni ideyalar və yanaşmalar ortaya qoyulur. Müxtəlif ölkələrdə və beynəlxalq təşkilatlarda mühüm qərar qəbul edənlər üçün bu, düzgün qərarların verilməsi məqsədilə yaxşı və müsbət platformadır. Bu baxımdan Azərbaycan həm daxildə, həm də xaricdə qarşılıqlı anlaşma və əməkdaşlığa söykənən siyasət yürüdür. Biz körpülər qururuq. Biz Avropa ilə Asiya arasında yerləşirik. Əlbəttə, bizim coğrafiyamız tariximizə təsir edib və bugünkü inkişafımıza da təsir etməkdədir"*

"Bakı Prosesi" çərçivəsində bu zamana qədər çoxsaylı mötəbər beynəlxalq tədbirlər keçirilib. Qeyd etdiyimiz kimi, Azərbaycanın Avropa Şurası və İslam Əməkdaşlıq Təşkilatının üzv dövlətləri arasında əməkdaşlıq üçün unikal platforma olan "Bakı Prosesi"ni uğurla davam etdirməsi beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir. Təsadüfi deyil ki, bu gün "Bakı Prosesi" BMT-nin dörd ixtisaslaşmış beynəlxalq təşkilatının tərəfdaşlıq etdiyi yeganə platformadır. Bu fakt 2017-ci ildə BMT-nin baş katibi tərəfindən xüsusi qeyd olunub, daha sonra isə BMT-nin qəbul etdiyi qətnamədə əksini tapıb. Bütövlükdə, Azərbaycanın təşəbbüsü ilə başlanan "Bakı Prosesi" dünyada yeganə genişmiqyaslı əməkdaşlıq formatı olmaqla bərabər, mədəniyyətlər və sivilizasiyalararası dialoqun inkişafına fundamental töhfələr verir.

Nəticə etibarilə, Azərbaycan beynəlxalq dialoq və əməkdaşlıq məkanı kimi çıxış edir, ölkəmizin ev sahibliyi etdiyi qlobal əhəmiyyətli nüfuzlu tədbirlər qarşılıqlı anlaşma və əməkdaşlığa xidmət edir, sivilizasiyalararası dialoqun təşviqi və inkişafında yeni yanaşmaların, ideyaların meydana çıxmasına əlverişli zəmin yaradır. Eyni zamanda, Azərbaycanın həm müxtəlif tədbirlərə ev sahibliyi etməsi, həm də dünyanın ayrı-ayrı ölkələrində keçirilən beynəlxalq konfransların təşəbbüskarı və təşkilatçısı kimi çıxış etməsi sivilizasiyalararası dialoqun genişləndirilməsinə, bu istiqamətlərdə səmərəli fikir mübadiləsinin aparılması və işbirliyinin gücləndirilməsinə fundamental töhfələr verir. Prezident İlham Əliyevin vurğuladığı kimi: **"Bu qəbildən olan forumlar mədəniyyətlərarası dialoq mövzusuna diqqəti cəlb edir, yeni ideyalar və yanaşmalar ortaya qoyulur. Müxtəlif ölkələrdə və beynəlxalq təşkilatlarda mühüm qərar qəbul edənlər üçün bu, düzgün qərarların verilməsi məqsədilə yaxşı və müsbət platformadır. Bu baxımdan Azərbaycan həm daxildə, həm də xaricdə qarşılıqlı anlaşma və əməkdaşlığa söykənən siyasət yürüdür. Biz körpülər qururuq. Biz Avropa ilə Asiya arasında yerləşirik. Əlbəttə, bizim coğrafiyamız tariximizə təsir edib və bugünkü inkişafımıza da təsir etməkdədir".**

### AZƏRBAYCANDA MÜXTƏLİF DİNLƏRİN VƏ XALQLARIN NÜMAYƏNDƏLƏRİ SÜLH, ƏMİN-AMANLIQ VƏ MEHRİBANLIQ ŞƏRAİTİNDƏ YAŞAYIRLAR

Forumda Azərbaycanın əsrlər boyu müxtəlif mədəniyyətlərin, etnik qrupların və dinlərin nümayəndələrinin birgə yaşayıb-yaratdığı məkan, tolerantlıq nümunəsi olduğu xüsusilə diqqətə çatdırılıb. Bu, onu göstərir ki, ölkəmizdə müxtəlif dinlərin və xalqların nümayəndələrinin sülh, əmin-amanlıq və mehribanlıq şəraitində yaşaması beynəlxalq müstəvidə də olduqca yüksək qiymətləndirilir. Tarixin bütün dövrlərində Azərbaycanın dini, milli və mədəni dəyərlərə və müxtəlif dinlərin, millətlərin, mədəniyyətlərin, sivilizasiyaların mənsublarına münasibətinə görə, sözün əsl mənasında, tolerantlıq nümunəsi olması aşkar reallıqdır. Sevindirici haldır ki, bu gün də bu reallıq müşahidə edilir. Yeri gəlmişkən, Prezident İlham Əliyev bəhs olunan çıxışı zamanı qeyd edib ki, Azərbaycan əsrlər boyu müxtəlif mədəniyyətlərin, etnik qrupların və dinlərin nümayəndələrinin birgə yaşayıb-yaratdığı və təmasda olduğu bir məkandır. Dövlət başçısı deyib ki, əsrlər boyu Azərbaycan dini dözümlülük və müxtəlif millətlərin birgə yaşadığı torpaq olmuşdur. **"Tarix və coğrafiyamız nümayiş etdirir ki, biz yalnız tərəfdaşlıq və qarşılıqlı hörmət ruhunda uğura nail ola bilərik. Azərbaycanın bugünkü sürətli inkişafı da məhz bu mədəni irsimizə və cəmiyyətimizin bütün nümayəndələrinin nümayiş etdirdiyi həmrəyliyə əsaslanır. Biz tariximiz, tarixi abidələrimizlə fəxr edirik. Onlar da əsrlər boyu müxtəlif dinlərin nümayəndələrinin Azərbaycanda yaşayıb-yaratdıqlarını göstərir. Biz qədim tariximizlə fəxr edirik. Dünyanın ən qədim məscidlərindən biri qədim Şamaxı şəhərində yerləşir. Qafqazın ən qədim kilsələrindən biri olan Qafqaz Albaniyasına məxsus kilsə bizim qədim Şəki şəhərindədir"**,-deyə dövlət başçısı vurğulayıb.

*"Bu gün "Bakı Prosesi" BMT və digər beynəlxalq təşkilatlar tərəfindən dəstəklənir. Əminəm ki, "Bakı Prosesi"nin böyük gələcəyi var"*

Ümumiyyətlə, xalqımızın çoxəsrlik tolerant və mehriban birgəyaşayış ənənələri dünya sivilizasiyaları arasında münasibətlərin tənzimlənməsində və inkişafında nümunə kimi göstərilir. Dünyada multikulturalizm mərkəzlərindən olan və tolerantlıq nümunəsi kimi çıxış edən Azərbaycan bu zəngin tarixi irsi əsasında dünyada sivilizasiyalar arasında dialoqun inkişafını təşviq edir, bu yolun qarşılıqlı əməkdaşlığa, inteqrasiyaya, sülh və təhlükəsizliyə xidmət etdiyini göstərir. Azərbaycan Prezidentinin vurğuladığı kimi: **"Bizim tariximiz mədəni müxtəliflik tarixidir və bu gün həmin tarixi irs əsasında Azərbaycan dünyaya mədəniyyətlərarası dialoqun ölkələri yaxınlaşdırmağın, müxtəlif mədəniyyət və sivilizasiya nümayəndələri arasında yeni körpülərin qurulmasının yeganə yol olduğunu nümayiş etdirir".**

### ÖLKƏMİZDƏ MULTİKULTURALİZM HƏYAT TƏRZİDİR

Ümumiyyətlə, Azərbaycan beynəlxalq münasibətlər sisteminə yeni və daha mütərəqqi dəyərlər təqdim etməkdədir. Qeyd etdiyimiz kimi, dünyada sivilizasiyalararası qarşıdurmaların, müxtəlif humanitar böhranların, dini və milli-etnik müstəvidə kataklizmlərin yaşandığı bir dövrdə Azərbaycan həm sivilizasiyalararası dialoqun təşviqi və inkişafına dəyərli töhfələr verir, həm də sabitliyi, sülhpərvər və tərəqqipərvər mövqeyi ilə nümunə kimi çıxış edir. Buna paralel olaraq ölkəmizin timsalında, sözün əsl mənasında, multikulturalizmin təntənəsi və nümunəsi müşahidə edilməkdədir. Azərbaycan təcrübəsi onu deməyə əsas verir ki, multikulturalizmin alternativi yoxdur və bu, mədəniyyətlər, sivilizasiyalararası dialoqun, xalqlararası əlaqələrin inkişafı baxımından müstəsna əhəmiyyətə malikdir. Prezident İlham Əliyev Forumda çıxışı zamanı **"Multikulturalizm bizim üçün həyat tərzidir. Bu söz nisbətən yeni olsa da, biz həmin ab-havada əsrlər boyu yaşamışıq. 2016-cı ilin Azərbaycanda "Multikulturalizm İli" elan olunması onu sübut edir ki, biz dünyanın diqqətini bu mühüm ideyaya cəlb etmək istəyirik. 2017-ci il isə "İslam Həmrəyliyi İli" elan edilib. Bu da bizim tarixi irsimizi, kökümüzü və dünyaya açıq olduğumuzu nümayiş etdirən, rəmzi məna daşıyan addım idi. Hesab edirəm ki, bu meyillər dünyada üstünlük təşkil etsə, dünyada təhlükəsizlik, proqnozlaşdırıla bilmə və sülh bərqərar olar"**, - deyə diqqətə çatdırıb.

O da qeyd edilməlidir ki, ölkəmizdə multikulturalizmin həm dövlət siyasəti, həm də cəmiyyətdə həyat tərzi olması beynəlxalq miqyasda da olduqca yüksək qiymətləndirilir. Ümumiyyətlə, Azərbaycan elə bir ölkədir ki, burada milli, dini, irqi müxtəliflik insanlar arasında fərq yaradan, kimlərəsə üstünlük verən amil kimi çıxış etmir. Əksinə, burada tolerantlıq, milli, dini, irqi müxtəliflik cəmiyyətin əsas və üstün dəyəri kimi təqdim olunur. Azərbaycanda xalqların, milli və dini icmaların heç bir fərq qoyulmadan bərabər yaşamasına, sıx inteqrasiya etməsinə həm dövlət güclü siyasi iradə nümayiş etdirir, həm də cəmiyyətdə buna böyük istək var. Təsadüfi deyil ki, bu gün ölkəmizdə mövcud olan milli həmrəylik, sabitlik və tolerantlıq mühiti məhz bu dəyərlərə əsaslanır. Dövlət başçısının vurğuladığı kimi: **"Bizim üçün multikulturalizm həm də siyasətimizin mühüm elementlərindəndir. Azərbaycanda multikulturalizm üzrə beynəlxalq mərkəz yaradılıb. Biz bu dəyərləri təşviq edir və multikulturalizmin böyük gələcəyinin olduğunu nümayiş etdiririk. Bilirik ki, bu mövzu ilə bağlı müxtəlif fikirlər var. Ancaq hesab edirəm ki, bizim forum və bu mövzuda Azərbaycanda və dünyanın digər yerlərində təşkil olunan çoxsaylı beynəlxalq tədbirlər multikulturalizm dəyərlərinin təşviqi ilə bağlı səylər göstərdiyimizi aydın nümayiş etdirir".**

Nəticə etibarilə, Azərbaycanın bu sahədəki təcrübəsi təqdirəlayiq olmaqla yanaşı, müsbət və mütərəqqi nümunə kimi çıxış edir.

Nurlan QƏLƏNDƏRLİ

# Beşinci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun plenar sessiyasında gənclərin ekstremizmə qarşı mübarizədə rolu məsələsi müzakirə olunub

*Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva plenar sessiyada iştirak edib*

Mayın 3-də V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində "Gənclər sülh naminə: şiddətli ekstremizmə qarşı əks qüvvənin formalaşdırılması" mövzusunda ikinci plenar sessiya keçirilib. AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva sessiyada iştirak edib.

BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Migel Anxel Moratinosun moderatorluğu ilə keçirilən sessiyada Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva çıxış edib: **"Əziz dostlar.**

**Həmkarlar.**

**Xanımlar və cənablar.**

**İlk növbədə, mən sizin hamınızı gözəl Bakı şəhərində keçirilən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda salamlamaqdan məmnun olduğumu bildirirəm. Bu platforma sülh şəraitində yaşamanı daim təbliğ etmişdir. Dünyamızı daha yaxşı etmək üçün bir çox ölkələrdən insanları burada bir arada görmək olduqca xoşdur. Bu gün bizim hamımızın burada bir araya gəlməyimizin səbəbi zəngin fərqliliklər, mədəni müxtəlifliklər, bəşəri dəyərlər və anlaşmadır.**










**Mən sülhün və müxtəlifliyin təbliğində məhz gənclərin rolunu xüsusi qeyd etmək istərdim. Gənclərin çoxsaylı şəbəkələr yaratmaq, özü də bütün mümkün sərhədləri keçmək kimi gözəl qabiliyyətləri var. Sülh və harmoniya uğrunda mübarizədə gənclərə əksər hallarda ümidsiz romantiklər kimi baxırlar. Amma deyərdim ki, bu, qeyri-səmimi yanaşmadır. Əminəm ki, gənclərin dialoqa açıqlığı sülhə və rifaha gətirib çıxaracaq.**

**Əziz dostlar, təhsil yalnız bilik və peşəkar inkişaf bacarıqlarının qazanılması deyil. Həmçinin mənəvi təhsil də bunlar qədər vacibdir. Bu baxımdan ailələr və məktəblər iki mühüm təsisatdır. Əməkdaşlıq, anlaşma və bütün bəşəriyyətə rəğbət və hörmət dəyərləri aşılayan ailə uşaqları sülhpərvər dünyaya hazırlamaqda mühüm rol oynayır. Bunlar olmayanda boşluğu nifrət və dözümsüzlük doldurur. Eyni zamanda, gənclərə doğru-düzgün təhsil vermək onların tam potensialının reallaşması üçün çox vacib bir amildir. Çünki gənclərin tez öyrənmək, eləcə də prosesləri izləmək, çoxsaylı məlumatları əldə etmək kimi bacarıqları var. Həmçinin onlar ətraf mühitin mühafizə olunması və təbiətin bizə bəxş etdiyi nemətlər barədə çox məlumatlıdırlar.**

**Bununla belə gənclərə həddindən artıq təzyiq göstərilməməlidir. Bəzən ən intellektli gənclər belə tam xoşbəxt olmurlar. Ona görə də biz gənclərə dəstək göstərərək bundan da yaxşı bir dünya yaratmağa nail olmalıyıq ki, onlar gözəl planetdə və harmoniya içərisində yaşamaqdan daha çox zövq alsınlar. Yüksək texnologiyanın inkişafı sayəsində biz fikirlərimizi daha sürətlə ifadə edirik. Bizim fikirlərimiz ən güclü enerjilərdəndir, hətta işıq sürətindən də sürətlidir. Dünya bu potensiala investisiya yatırmalı və əmin olmalıdır ki, gənc nəslin inkişaf üçün bütün zəruri imkanları var. Bu gün dünyada gənclərin sayı daha çoxdur. İdeyalar və yüksəlişlər bütün planetin gələcəyini dəyişə bilər. Amma əfsuslar olsun ki, 617 milyona yaxın gənc hələ də riyazi və ədəbi biliklərdən məhrumdur. Bu, o deməkdir ki, biz çox dəyərli bir potensialı itiririk. Məhz gənclər tərəqqinin təcəssümüdür. Hər bir yeni nəsil əvvəlkindən daha mütərəqqi, humanist, həssas, tolerant və açıqfikirlidir. Bu isə tarixin təbii təkamülüdür. Gəlin gənclərə öz enerjilərini qlobal problemlərin həllinə yönəltməkdə kömək edək, gəlin hamılıqla onlara dəstək olaq. Vaxt həyatımızın ən mühüm resursudur. Gəlin onu israf etməyək. Sözlər daim əməllə müşayiət olunmalıdır. Hər bir bəşər övladına verilmiş müqəddəs hədiyyə olan intuisiyamızı unutmamalıyıq. Xalqların sülhsevər və dayanıqlı cəmiyyət formalaşdırmasında hər bir kəs fərqlilik yarada bilər. Beləliklə də onlar özlərini dəyişməklə bəşəriyyətə olan baxışlarını müsbət mənada dəyişə bilərlər.**

**Əziz dostlar, İsa peyğəmbərin dediyi kimi, gəlin uşaqlardan öyrənək. Uşaqlar sözü birbaşa deməyə və yaxşı işlər görməyə can atırlar. Maddiyyat heç də uğur, müvəffəqiyyət demək deyil. Həyatda ən vacib olan sevgidir, sağlamlıqdır, xoşbəxtlikdir, birlikdir, anlaşmaqdır və bir-birini təmənnasız şəkildə dəstəkləməkdir. Bütün bunları hamımıza diləyirəm. Çox sağ olun".**

* * *

BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Migel Anxel Moratinos deyib ki, bu plenar sessiyada müzakirəyə çıxarılan məsələlərə yeni baxışla yanaşılacaq. Sessiyanı mənfi düşüncələri dəyişmək üçün gözəl fürsət adlandıran BMT təmsilçisi gəncləri ekstremizm, nifrət kimi amillərdən qorumağın vacibliyini vurğulayıb.

Sessiyadakı müzakirələr cəmiyyətdə gənclərin rolu, təhsil, sülh quruculuğu və dinlərarası dialoq mövzularını əhatə edib. Somali Stabilləşmə Təşəbbüsünün biliyin idarə olunması və strateji kommunikasiyalar üzrə rəsmisi Nacma Əhməd-Hüseyn ölkəsində müxtəlif etnik qrupların bir araya gəlməsi üçün həyata keçirilən layihələrdən danışıb. Sənədli filmlər rejissoru Roda Siad reallaşdırdığı layihələr vasitəsilə miqrasiya böhranı, qaçqınların və digər ölkələrdə sığınacaq axtaranların taleyi, onların qarşılaşdığı çətinlikləri barədə cəmiyyətə məlumatların verilməsinin əhəmiyyətinə toxunub. Erbildə "Malteser İnternational"un ictimai əlaqələr üzrə məsləhətçisi Sara Markieviç İraqdakı icmalar arasında qeyri-sabit vəziyyət barədə məlumat verərək bu istiqamətdə dinlərarası dialoqun roluna nəzər salıb. Zorakı ekstremizmin qarşısının alınması üzrə mütəxəssis Selim Çerkau terrorizmə görə məhkum edilmiş məhbuslar arasında maarifləndirmə işlərinin aparılması, onların cəmiyyətə adaptasiyası və baxışlarının dəyişməsi istiqamətlərində həyata keçirilən layihələrdən bəhs edib. Pakistan Gənclər Alyansının "Peace Rickshaws" layihəsinin təsisçisi Syed Ali Abbas Zaidi zorakı ekstremizmə qarşı layihə və onun nəticələri ilə bağlı fikirlərini çatdırıb, bu layihənin 15 min insanı əhatə etdiyini söyləyib. "Efemerides"in təsisçisi Fatoumata Kebe gənclərə imkanlar yaradılması, problemlərin həllində onlara səlahiyyət verilməsi istiqamətində həyata keçirilən layihəsindən danışıb. Qeyd edib ki, Malidə yalnız 30 faiz qızların məktəbə getmək imkanı var və onun rəhbərlik etdiyi təşkilat belə ölkələrdə müxtəlif fənlər üzrə dərslər təşkil edir. Mərkəzi Avropa Universitetinin beynəlxalq münasibətlər üzrə magistr namizədi Corc Antonio Şavez Mazuelos, "Sri Lanka Unites" Gənclər Hərəkatının milli direktoru Liyanaaraççig Neluni Tillekeratne, "Emkan Education"nın məktəb və məzmun üzrə direktoru və həmtəsisçisi Sara Zaini, BMT-nin Gənclər Siyasəti üzrə mütəxəssisi Ansa Qliqa, Dinlərarası Mediasiya Mərkəzinin həmicraçı direktoru İmam Muhammad Nurayn Aşafa, Dinlərarası Mediasiya Mərkəzinin həmicraçı direktoru Pastor Ceyms Movel Vuye, "Burson, Cohn and Wolf"un idman hesabları üzrə baş icraçısı Nevena Vukasinovic, Lvov şəhərinin merinin dini məsələlər üzrə müşaviri Taras Dzyubanski gənclərin fəallığı üçün proqramların əhəmiyyətini, zorakılığa, terrorizmə məruz qalan gənclərin təhsil almasında təqaüd proqramlarının faydasını qeyd ediblər.

Sonda sessiya iştirakçılarının suallarını cavablandırılıb.

## Etnik-mədəni müxtəlifliyin artması və onun tənzimlənməsində çoxmədəniyyətlilik siyasəti xüsusi əhəmiyyət kəsb edir





Mayın 3-də Beşinci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində "Müasir dünyada etnik-mədəni müxtəlifliyin artması və onun tənzimlənməsində çoxmədəniyyətlilik siyasətinin əhəmiyyəti" mövzusunda növbəti sessiya keçirilib.

AZƏRTAC xəbər verir ki, sessiya Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM) tərəfindən təşkil edilib.

Heydər Əliyev Fondunun vitse-prezidenti, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının üzvü Leyla Əliyeva sessiyada iştirak edib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov tədbirə moderatorluq edib. O, Azərbaycandakı multikultural mühit barədə məlumat verib.

Şöbə müdiri bildirib ki, etnik və mədəni müxtəliflik öz-özlüyündə müsbət fenomendir. Çünki bu, etnik və mədəni dəyərlərə söykənir. Yəni, insanın davranışına, onun vərdişlərinə bağlanır və bunlar bütövlükdə bizim bugünkü fəaliyyətimizi istiqamətləndirir. Lakin bu məsələlər dövlət tərəfindən tənzimlənməlidir. Belə olmasa müxtəlif münaqişələr dini və etnik əsaslarla meydana gələ bilər. Azərbaycan multikulturalizm, tolerantlıq məkanıdır. Azərbaycan öz multikulturalizm siyasəti ilə tanınan ölkədir. Multikulturalizm ölkəmizdə dövlət siyasətinin bir hissəsidir. Bu siyasətin əsasını Ulu Öndər Heydər Əliyev qoyub. Hazırda həmin siyasət Onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Tədbirdə çıxış edən BBMM-in Himayəçilik Şurasının sədri Kamal Abdullayev multikulturalizmin Azərbaycanın dövlət siyasəti olduğunu bildirib. Qeyd edib ki, Azərbaycanda dinlərarası harmoniya, qədim tolerantlıq və multikulturalizm ənənələri mövcuddur. Əhalisinin əksəriyyəti müsəlman olan ölkəmizdə İslam dini ilə yanaşı, digər dinlərə mənsub insanlar qarşılıqlı anlaşma, mehriban qonşuluq və əmin-amanlıq şəraitində yaşayırlar. Azərbaycanda tarixən mövcud olan bu ənənələrin qorunması və inkişafı, eləcə də multikultural dəyərlərin təbliği ölkə rəhbərliyinin daim diqqət mərkəzindədir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, multikulturalizmin təbliği dini dəyərlərin, Azərbaycanda yaşayan müxtəlif etnik qruplardan ibarət xalqımızın tarixinin, mədəniyyətinin təbliği olmaqla yanaşı, xalqımızın bütün dünyaya verdiyi sevgi, mərhəmət mesajıdır. M.Qurbanlı tədbir iştirakçılarını Azərbaycanın multikulturalizm ənənələri barədə məlumatlandırıb, ölkəmizdə mövcud olan müxtəlif dini icmalar, dövlət-din münasibətlərini tənzimləyən qanunvericilik bazası və bu sahədə dövlət siyasətindən danışıb.

ABŞ Etnik Anlaşma Fondunun prezidenti Mark Şnayer, Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Fuad Nurullayev, Los-Anceles Xristian Dini Mərkəzinin rəhbəri, yepiskop Xuan Karlos Mendez, Kolumbiya ştatının Vaşinqton Hüquq Assosiasiyasının məsləhətçisi Janna Skot və başqaları çıxış edərək ölkəmizdəki multikulturalizm mühitinin bütün dünyaya nümunə olduğunu bildiriblər. Qeyd edilib ki, multikulturalizm və tolerantlıq tarixən azərbaycanlıların həyat tərzi olub, bu gün isə etnik mənsubiyyətindən, dilindən, dinindən asılı olmayaraq Azərbaycan dövlətinin hər bir vətəndaşının gündəlik həyat tərzinə çevrilib. Bu, olduqca təqdirəlayiq haldır.

Tədbir müzakirələrlə davam edib.

## V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu başa çatıb




Bakıda "Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında təşkil olunmuş V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu mayın 3-də başa çatıb.

AZƏRTAC xəbər verir ki, Böyük Britaniyanın Koventri Universitetinin İnam, Sülh və Sosial Əlaqələr Mərkəzinin icraçı direktoru, professor Mayk Hardi Forumun yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə minnətdarlığını bildirib.

Tədbirin əhəmiyyətindən danışan alim deyib: **"Forumun çox zəngin proqramı var. İki gün ərzində bizim müzakirə etdiyimiz məsələlər beynəlxalq əməkdaşlıq baxımından çox önəmli idi. Aparılan müzakirələr bizi yenidən bu məsələləri nəzərdən keçirməyə vadar edir. Dialoq çox önəmlidir. "Bakı Prosesi" bir daha sübut edir ki, əməkdaşlıq əlaqələri möhkəmləndirilməlidir. Bu istiqamətdə birlikdə çalışmalıyıq".**

Forumda "Müxtəlifliyin idarə olunması: çoxsəviyyəli və çoxtərəfli əməkdaşlıq", "Sülh naminə gənclər: şiddətli ekstremizmə qarşı əks qüvvənin formalaşdırılması" və "Miqrasiya, yerdəyişmə və insan təhlükəsizliyi" mövzularında üç əsas plenar sessiyanın keçirildiyini bildirən Mayk Hardi dünyada sülh və bərabərliyin, qarşılıqlı etimadın və anlaşmanın əldə olunmasında bu tədbirin böyük əhəmiyyət kəsb etdiyini söyləyib.

Bağlanış mərasimində çıxış edən mədəniyyət naziri Əbülfəs Qarayev bütün iştirakçılara və tərəfdaşlara minnətdarlığını bildirərək 2 gün ərzində mühüm mövzuların müzakirə olunduğunu bildirib. O deyib: **"Birinci dəfə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna 40 ölkə ilə başladıq. Hazırda isə bu Forumda 135 ölkə təmsil olunur. Forum müddətində çoxsaylı məruzələr dinlənilib, 20-dən çox müxtəlif tədbir, o cümlədən sessiya, dəyirmi masa və s. təşkil edilib. Habelə 30-dan çox beynəlxalq təşkilatın rəhbərləri bir otaqda əyləşərək müzakirələr aparıblar. Bütün sessiyalarda keçirdiyimiz hər məqam canlı şəkildə BMT veb-saytı vasitəsilə yayımlanıb".**

Sonra BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Migel Anxel Moratinos, UNESCO-nun Baş direktorunun sosial və humanitar elmlər üzrə müavini Nada Al-Naşif, ISESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycri və BMT-nin Dünya Turizm Təşkilatının icraçı direktoru Manuel Butler Halter çıxış edərək Forumun yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə, xüsusilə də Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.




Qeyd edilib ki, Forumda sülh və inkişafa nail olmaq məqsədilə mədəniyyətlərarası anlaşma və mədəni müxtəliflik məsələləri, qloballaşma dövründə mədəniyyətlərin qarşılıqlı təsiri və sintezi, sürətlə dəyişməkdə olan dünyada sivilizasiyalararası əlaqələrin əhəmiyyəti və etnik münaqişələrin qarşısının alınması, turizmin inkişafı və digər məsələlərə toxunulub. Həmçinin mədəni müxtəliflik üçün ictimai dəstəyin göstərilməsinə dair maraqlı təkliflər irəli sürülüb.

Sonda Əbülfəs Qarayev Forumun işində yaxından iştirak edən hər kəsə minnətdarlığını bildirib.

# ADMİU-da akademik Ramiz Mehdiyevin "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabının təqdimatı olub





Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (ADMİU) Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabının təqdimatı keçirilib.

ADMİU-dan AZƏRTAC-a bildirilib ki, tədbirdə çıxış edən rektor, professor Ceyran Mahmudova tariximizin xanlıqlar dövrünə həsr olunan kitabın Azərbaycan humanitar elmlər sahəsi üçün əhəmiyyətindən danışıb. Bildirib ki, akademik Ramiz Mehdiyevin bu kitabı Azərbaycan tarixində olan boşluqların aradan qaldırılmasına xidmət edir.

Ceyran Mahmudova deyib: **"Artıq iki aya yaxındır ki, hörmətli akademik Ramiz Mehdiyevin "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabı işıq üzü görüb. Akademik Ramiz Mehdiyev ölkəmizin tarixi ilə bağlı bir sıra dəyərli kitabların müəllifidir. Onun bir çox kitabları Azərbaycan tarixinin istər qədim, istərsə də müasir dövrlərini araşdıran dəyərli qaynaqlardır. "Azərbaycanlılara qarşı soyqırım gerçəklikləri", "Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi", "XXI əsrdə milli dövlətçilik: Demokratik inkişaf və müxalifət", "Tarixi idrakın elmiliyi problemlərinə dair", "Şah İsmayıl Səfəvi: hökmdarın və döyüşçünün portreti" - bu kitabların hər biri Azərbaycan tarixinin dünənini və bu gününü əhatə edən dəyərli araşdırmalardır. Xanlıqlar dövrünün siyasi təhlilinə və tarixi dəyərləndirilməsinə həsr olunan, 22 orijinal sənəddən və bu sənədlərin geniş təhlilindən ibarət "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" adlı sanballı tədqiqat işində müəllif xanlıqlar dövrünün Azərbaycan tarixindəki rolunu, dövrün obyektiv siyasi mənzərəsini canlandırır. Əslində, xanlıqlar dövründən yazanda akademik Ramiz Mehdiyev ölkəmizin bu günü ilə bağlı da bizə bir çox işarələr verir. Yarım əsrlik dövrü əhatə edən xanlıqlar dövrü Azərbaycanın parçalanması, xanlıqlara bölünməsi ilə bağlı idi. Xanlıqlar dövrü vahid Azərbaycanın yaranmasına əngəl olub. Xanlıqlar arasındakı daxili çəkişmələrdə, müharibələrdə soydaşlarımızın qanı tökülüb. Ötən əsrin 90-cı illərinin əvvəllərində də biz qardaş qırğınının astanasında idik. Ümummilli Lider Heydər Əliyev Azərbaycan dövlətinin başında durmasaydı, xalqımızın başına hansı müsibətlərin gələcəyini təsəvvür etmək belə dəhşətlidir. Biz o zaman çox çaşqın vəziyyətdə idik. Bilmirdik, gələcəyimiz necə olacaq. Belə bir zamanda Ulu Öndər Heydər Əliyevin xalqımızın təkidli tələbi ilə Azərbaycana rəhbərliyə qayıtması bizim üçün böyük xoşbəxtlik oldu. Biz bu vəziyyətdən çıxa-çıxa təhlükəsiz, sabit həyat yaşamağa başladıq. Azərbaycan qısa zaman ərzində öz siyasi, iqtisadi gücünü artıraraq, regionun lider dövlətinə çevrildi. Kitabda xanlıqlar dövrü sənədlərlə geniş şəkildə şərh olunur. Biz görürük ki, xanlıqlar dövründə Azərbaycana qarşı yürüdülən "parçala və hökm sür" siyasətini 90-cı illərdə də bizə qarşı tətbiq etmək istəyirdilər. Mənə elə gəlir ki, akademik Ramiz Mehdiyevin bu mövzuya müraciət etməsi heç də təsadüfi deyil. Çünki tarixi unutmaq olmaz. İnsan öz xalqının taleyini, onun hansı məşəqqətlərdən keçdiyini, hansı bəlalarla üz-üzə olduğunu unutmamalıdır. Akademik Ramiz Mehdiyev yazır: "Bütövlükdə ictimaiyyətimiz, xüsusilə də alimlərimiz özləri üçün birdəfəlik yəqin etməlidirlər ki, milli şüurun təşəkkülü prosesi, milli məfkurənin, düşüncənin yaranması kortəbii şəkildə baş vermir. Milli şüurun təşəkkülü dövlət quruculuğu qədər mürəkkəb və çoxmərhələli bir prosesdir. Onun düzgün istiqamətdə inkişaf etməsi, dayanıqlı və praktik cəhətdən faydalı olması üçün dərindən düşünülmüş, bütün zəruri detalların nəzərə alındığı çevik, mütəhərrik strategiya işlənib hazırlanmalıdır". Bu kitabı olduqca faydalı, vaxtında işlənmiş dəyərli bir əsər kimi qiymətləndirirəm. Müxtəlif təhsil ocaqlarında kitabın təqdimat və müzakirələri həyata keçirilib və onlar bu gün də davam edir".**

ADMİU-nun elm və yaradıcılıq işləri üzrə prorektoru, professor Məryəm Əlizadə akademik Ramiz Mehdiyevin həm siyasi, həm də elmi fəaliyyətinin əhəmiyyətini vurğulayıb və zəngin təcrübəyə və hərtərəfli elmi düşüncəyə malik alimin qələmindən çıxmış kitabın böyük elmi əhəmiyyətə malik olduğunu vurğulayıb: **"Mənim üçün əlamətdar olan bir məqam da var ki, bu kitabda Azərbaycan mədəniyyətindən də söz açılır. Kitabda xanlıqlar dövrünün həm mənfi tərəfləri, həm də müsbət cəhətləri işıqlandırılır. Bu kitab bizim sahə üçün mədəniyyət sahəsinin öyrənilməsi baxımından da böyük əhəmiyyət kəsb edir".**

Universitetin beynəlxalq əlaqələr və tərbiyə işləri üzrə prorektoru, professor Gülşən Kəngərli akademik Ramiz Mehdiyevin qələmə aldığı digər elmi əsərlər kimi, bu kitabın da geniş elmi ictimaiyyət tərəfindən böyük maraqla qarşılandığını vurğulayıb: **"Elmi əsərin qiymətini müəyyənləşdirən onun yalnız hansı sualları qaldırması, hansı suallara cavab verməsi deyil, həm də hansı problemlərin həll olunması haqqında proqnoz verməsidir. Əsərin müqəddimə hissəsində qaldırılan məsələlər Azərbaycan tarixşünaslığının gələcək inkişafı üçün proqram səciyyəsi daşıyır. Hörmətli akademik kitabında Azərbaycan tarixi üçün son dərəcə əhəmiyyətli bir məsələni gündəmə gətirir və tarixi problemlərin işığında bugünkü problemləri çözməyə çağırır. Müəllif məsələyə həm tarixçi, həm filosof, həm də müdrik və təcrübəli bir dövlət xadimi kimi yanaşır. Hesab edirəm ki, bu əsər çox qiymətli bir əsərdir və kitabın müəyyən hissəsinin dərsliklərə salınması gənclər üçün də çox vacibdir".**

Tədbirdə rektorun humanitar məsələlər üzrə müşaviri professor Aqşin Babayev, kino və televiziya fakültəsinin dekanı, dosent Mübariz Məmmədli, kulturologiya üzrə fəlsəfə doktoru, dosent Xaləddin Sofiyev, fəlsəfə elmləri doktoru, professor Əlikram Hümbətov, Azərbaycan dili və ədəbiyyatı kafedrasının müdiri, dosent Fəridə Səfiyeva, ədəbi yaradıcılıq və ekran dramaturgiyası kafedrasının müdiri, Əməkdar incəsənət xadimi, dosent Əli Əmirli çıxış edərək akademik Ramiz Mehdiyevin "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabının məziyyətlərindən danışıblar.

Çıxışlarda "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabının tarixçilər, mənbəşünaslar, ədəbiyyatşünaslar üçün mühüm elmi mənbə kimi böyük əhəmiyyət kəsb etdiyi vurğulanıb. Kitabın fənn proqramlarına, təqvim planlarına daxil edilməsi təklifi irəli sürülüb.

# Nazirlər Kabinetinin Aparatının iclası keçirilib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında qaldırılan məsələlərlə əlaqədar Nazirlər Kabineti Aparatının iclası keçirilib.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş nazir Novruz Məmmədov 2019-cu ilin birinci rübündə ölkəmizin əldə etdiyi uğurlu nəticələrdən, aparılan iqtisadi islahatlardan, yeniliklərdən bəhs edib və Nazirlər Kabinetinin iclasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi istiqamət və hədəflərin hökumət üçün əsas meyar olduğunu bildirib. Baş nazir ilin birinci rübündə aparılan ciddi sosial əhəmiyyətli islahatların, verilən qərarların Azərbaycan ictimaiyyəti tərəfindən çox yüksək qiymətləndirildiyini, ölkəmizin həm regional, həm də dünya miqyasında reytinqinin daha da yüksəlməsinə səbəb olduğunu vurğulayıb. Xüsusən də, dövlətimizin başçısının əhalinin aztəminatlı təbəqəsinin, şəhid ailələrinin, Qarabağ müharibəsi əlillərinin, məcburi köçkünlərin sosial problemlərini daim diqqətdə saxlaması Nazirlər Kabineti üçün də prioritet məsələlərdən biridir. Bununla yanaşı, vergi və gömrük sahələrində institusional dəyişikliklər, şəffaflıq və sağlamlaşdırma tədbirləri də müsbət dəyişikliklərlə nəticələnib. Ölkədə bütün iqtisadi göstəricilər üzrə davamlı inkişaf müşahidə olunur, icra edilən böyük investisiya və infrastruktur layihələri iqtisadiyyata öz töhfəsini verir. İlin birinci rübündə Sumqayıt Kimya Sənaye Parkının ərazisində inşa olunmuş "SOCAR karbamid" zavodunun istifadəyə verilməsi, "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın, "Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019-2025-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi, o cümlədən ölkədə aqrar sahənin şaxələndirilməsi və dayanıqlı inkişafı istiqamətində atılan addımlar dövlətimizin başçısının apardığı məqsədyönlü siyasətin əməli nəticələridir.

İclasda sosial-iqtisadi inkişafın nəticələrinə dair ətraflı fikir mübadiləsi aparılıb. Baş nazir Novruz Məmmədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qarşıya qoyduğu vəzifələrin icrası ilə əlaqədar Nazirlər Kabineti tərəfindən həyata keçirilməsi nəzərdə tutulan tədbirlərlə bağlı Aparatın aidiyyəti şöbələrinə müvafiq göstərişlər verib.

# Əli Əhmədov: Prezidentin əfvi nəticəsində azadlığa çıxan Əli İnsanovun mətbuata verdiyi müsahibələr onun siması və insani keyfiyyətləri haqqında tam təsəvvür yaradır: yalan, riyakarlıq, xəyanət



**"Azərbaycan Prezidentinin əfvi nəticəsində azadlığa çıxan Əli İnsanovun mətbuata verdiyi müsahibələr onun siması və insani keyfiyyətləri haqqında tam təsəvvür yaradır: yalan, riyakarlıq, xəyanət. Onun Ümummilli Lider Heydər Əliyev yoluna xəyanəti artıq çoxdan bəllidir. Dünən "Amerikanın səsi" radiosuna verdiyi müsahibəsində isə Əli İnsanovun xəyanəti yeni formada və səviyyədə özünü göstərdi. Keçmiş nazir indi separatçı erməni ideoloqu kimi özünü təqdim və təsdiq etməyə çalışır. Bu isə milli xəyanətdən başqa bir şey deyildir. Erməni separatçılarının ideoloji tezis kimi uydurduğu, guya ermənilərin Azərbaycanda mənəvi iqtisalarının qeyri-mümkün olması haqqında əsassız şüarın Əli İnsanov tərəfindən dəstəklənməsinə ayrı cür ad vermək mümkün deyil. Görünür, Azərbaycan xalqının dəstəyini qazanmaq xülyasının boşa çıxmasından sonra o, ermənilərin, Qərbdəki erməni lobbisinin dəstəyinə arxalanmaq fikrinə düşüb. Burada qeyri-ixtiyari nazir olarkən İrəvana səfəri zamanı ermənilərlə qol qaldırıb oynaması haqqında vaxtilə ağızdolusu danışması yada düşür. Deməli, heç nə təsadüfən baş vermir. Hər şeyin bir səbəbi, bir izahı var".** Bu fikirlərin müəllifi Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyasının (YAP) Sədr müavini - İcra katibi Əli Əhmədovdur.

Əli Əhmədov özünün rəsmi facebook səhifəsində yayımladığı məqaləsində daha sonra bildirir: **"Əli İnsanovun simasının digər xarakterik cəhəti olan riyakarlıq isə ən riyakar insanlarda belə qibtə doğura bilər. On ildən çox nazir kimi çalışdığı hakimiyyəti "diktatura" adlandırması nə məntiqə, nə insanlığa sığır. Nazir olarkən bəlağətlə hakimiyyəti tərifləyən, müxalifət nümayəndələrini isə təhqir edən Əli İnsanov indi tam əksini edir. Soruşmaq lazımdır: Əli İnsanov, sənin hansı simana inanaq? Vaxtilə müxalifəti ən ağır sözlərlə təhqir edərkən gördüyümüz simana, yoxsa indi əvvəllər sədaqətlə qulluq etdiyini dediyin hakimiyyətə böhtan atan sifətinə. Yəqin, ən düzgün cavab bu olar ki, heç birinə. Buna isə simasızlıq deyirlər".**

YAP-ın Sədr müavini Əli Əhmədov öz paylaşımında daha sonra bildirir: **"Əli İnsanov həbsdə olduğu müddətdə Azərbaycan inanılmaz dərəcədə dəyişib, gözəlləşib, müasirləşib. İnsanlar indi daha yaxşı yaşayırlar. Düşünürdüm ki, azadlığa çıxandan sonra bu dəyişiklikləri görən insan özü də dəyişməyə bilməz. Ancaq görünən budur ki, Əli İnsanova inanmaq mümkün deyil. Onun islah olunduğunu da düşünmək sadəlövhlük olardı.**

**Azərbaycan xalqı ölkədəki sabitliyi, təhlükəsizliyi, inkişafı yüksək qiymətləndirir. İnsanlar ölkədə qarşıdurma yaradaraq inkişafa, əmin-amanlığa əngəl törətməyə çalışanları lənətləyir və onlara xalq-iqtidar birliyi ilə cavab verirlər".**

# V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun iştirakçılarına Azərbaycandakı tolerant mühit barədə məlumat verilib



Xalqımızın minilliklər ərzində formalaşmış tolerantlıq ənənələrini qoruyub saxlamaq, inkişaf etdirmək, yerli və beynəlxalq səviyyədə təşviq və təbliğ etmək Azərbaycan dövlətinin din siyasətinin əsas hədəfləri sırasındadır.

AZƏRTAC xəbər verir ki, bu sözləri mayın 3-də V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun iştirakçıları ilə görüşdə Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə deyib. A.Paşazadə qeyd edib ki, ölkəmizdə bütün dinlərin mənsublarına bərabər şərait yaradılıb, onların öz inanc və etiqadlarına uyğun yaşamaları üçün lazımi tədbirlər görülüb. Azərbaycanda bir çox xristian, yəhudi dini tədris müəssisələri sərbəst fəaliyyət göstərir və onlara dövlət tərəfindən hərtərəfli dəstək verilir. Dinlərin sülhyaratma, dialoq və əməkdaşlıq imkanlarından maksimum istifadənin önəminə toxunan QMİ sədri bu prosesdə fəal iştirak edən Azərbaycanın hazırda dinlər və mədəniyyətlərarası dialoqun aparıcı qüvvəsinə çevrildiyini bildirib.

BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Migel Anxel Moratinos Azərbaycandakı tolerant mühitin bütün dünyaya nümunə olduğunu bildirib. Qeyd edilib ki, Azərbaycan xalqı müxtəlifliyə qarşı hər zaman tolerant münasibət göstərib və qonaqpərvər ev sahibi simasında ölkəmizə gələn bütün digər xalqların nümayəndələrinə qucaq açıb. Bununla bağlı Azərbaycanda yaşayan dini icmaların liderlərinin fikirləri də əhəmiyyət kəsb edir. Onlar Azərbaycan xalqının öz təbii dini tolerantlığı ilə seçildiyini qeyd edərək, bu dəyərin həm cəmiyyətin təbii xüsusiyyəti, həm də dövlətin siyasəti olmasını yüksək qiymətləndirirlər.

# Əbuzər İbrahim Türkmən: Azərbaycan dinlərarası əlaqələrin genişlənməsi üçün mühüm addımlar atır



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı mayın 3-də V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində ölkəmizdə səfərdə olan İranın İslam Mədəniyyəti və Əlaqələri Təşkilatının sədri Əbuzər İbrahim Türkmən ilə görüşüb.

Komitənin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Mübariz Qurbanlı bildirib ki, Azərbaycan və İran qədim tarixi mədəniyyətə malikdirlər. Ümummilli Lider Heydər Əliyevin iki ölkə arasında əlaqələrin inkişafına hər zaman böyük diqqət yetirdiyini qeyd edən komitə sədri Prezident İlham Əliyevin bu siyasəti uğurla davam etdirdiyini diqqətə çatdırıb.

Qonağa ölkəmizdəki dini durum haqqında danışan Dövlət Komitəsinin sədri vurğulayıb ki, Azərbaycanda dini etiqad azadlığı yüksək səviyyədə təmin edilib, vətəndaşların dini etiqad azadlığına onların hüquq və azadlıqlarının tərkib hissəsi kimi yanaşılır. Xalqımızın milli-mənəvi dəyərlərinin, mədəni irsimizin qorunmasına xüsusi önəm verilir. Bildirib ki, Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu və Azərbaycan İlahiyyat İnstitutunun yaradılması dini-mənəvi mühitin qorunub saxlanılmasına göstərilən diqqətin əyani təzahürüdür.

2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan olunduğunu xatırladan Mübariz Qurbanlı bu çağırışın dövlətimizin İslam birliyinə olan həssas münasibətinin göstəricisi olduğunu deyib. Bu çərçivədə ilk beynəlxalq konfransın Tehranda keçirildiyini qeyd edən Komitə sədri tədbirin önəminə diqqət çəkib, bu prosesin davamlı xarakter daşıdığını bildirib.

Söhbət zamanı dini təəssübkeşliyin dini təkəbbürə, sonra fanatizm və ekstremizmə çevrilməsinin qarşısının alınmasının vacibliyindən də bəhs edən Mübariz Qurbanlı din pərdəsi altında öz məqsədlərinə nail olmağa çalışan radikal elementlərə qarşı mübarizədə dini maarifçiliyin əhəmiyyətinə toxunub.

Səmimi qəbula görə minnətdarlığını ifadə edən Əbuzər İbrahim Türkman ölkələrimiz arasında əlaqələrin genişləndirilməsi istiqamətində xeyli işlər görüldüyünü və əməkdaşlığın yüksək səviyyədə olduğunu vurğulayıb. V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində Azərbaycanda səfərdə olduğunu bildirən qonaq bu platformanın müasir dünya üçün aktual məsələlərin müzakirəsi baxımından əhəmiyyətini qeyd edib. Müxtəlif dinlərin və mədəniyyətlərin birgəyaşayışı və həmrəyliyi istiqamətində ardıcıl siyasət yürüdən Azərbaycanın dinlərarası və mədəniyyətlərarası əlaqələrin genişlənməsi üçün mühüm addımlar atdığını diqqətə çatdırıb.

Sonda qonaqlara Dövlət Komitəsinin nəşr etdirdiyi kitablar təqdim edilib.

# Milli Məclisin növbəti iclası keçirilib

## İclasda İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatı təqdim olunub



Mayın 3-də Milli Məclisin növbəti iclası keçirilib. Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov gündəlikdəki məsələləri təqdim etdikdən sonra müzakirələr başlayıb.

Əvvəlcə "Normativ hüquqi aktlar haqqında" Konstitusiya qanunu ikinci səsverməyə çıxarılaraq qəbul olunub. Sonra Azərbaycanın İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorunun 2018-ci il üzrə illik məlumatı müzakirəyə çıxarılıb. Məlumatı Azərbaycanın İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatoru, daxili işlər nazirinin birinci müavini Vilayət Eyvazov təqdim edib. Vilayət Eyvazov bildirib ki, transmilli mütəşəkkil cinayətkarlığın təhlükəli növlərindən olan insan alveri dünyada, eləcə də hər bir ölkədə sabitliyin əsaslarına, qanunun aliliyinə təhdid yaradan və insan hüquqlarını pozan əməllərdəndir. Eyni zamanda, bu sahədə fəaliyyət göstərən kriminal qrupların yüksək təşkilatlanma səviyyəsi və miqyasının sürətlə genişlənməsi baxımından XXI əsrin kəskin problemlərindən olaraq daim dünya birliyinin və nüfuzlu beynəlxalq təşkilatların diqqət mərkəzindədir. Təsadüfi deyil ki, Birləşmiş Millətlər Təşkilatının 2019-cu ildə yaydığı növbəti qlobal hesabatda dünyanın əksər ölkələrində insan alveri cinayətlərinin sayının artması, bu əməllərin cəzasızlıq mühitinin hökm sürdüyü silahlı münaqişə zonalarında daha geniş yayılması, onun qurbanları arasında qadınların və azyaşlı qızların xüsusi çəkisinin yüksək - təxminən 70 faiz həddində olması qeyd edilir. Aşkarlanmış cinayətlərin isə 59 faizini cinsi istismar, 34 faizini məcburi əmək faktlarının təşkil etməsi, ayrı-ayrı dövlətlərdə insan alverinin qanunsuz transplantasiya, cinayətkar fəaliyyətə cəlbetmə və övladlığa götürmə yolu ilə törədilməsi kimi növləri xüsusi vurğulanır. Bununla belə, insan alverinin qarşısının alınması, qurbanların hüquq və azadlıqlarının qorunması istiqamətində həyata keçirilən tədbirlər bir an belə səngiməyib. Hesabatda təkcə ötən il 17 min 880 insan alveri cinayətinin, 100 mindən çox qurbanın müəyyən edilməsi, təqsirli şəxslər barəsində məhkəmələr tərəfindən 7045 ittiham hökmünün çıxarılması əksini tapıb.

Qeyd olunub ki, insan alverinə qarşı mübarizənin kompleks və sistemli aparıldığı ölkələrdən olan Azərbaycan Respublikasında da sayca üçüncü Milli Fəaliyyət Planı ilə qarşıya qoyulmuş vəzifələr aidiyyəti dövlət orqanları, vətəndaş cəmiyyəti institutları və beynəlxalq tərəfdaşlarla birgə ardıcıllıqla və tam yerinə yetirilib. Bu sahədə qlobal çağırışlara cavab verən qanunvericilik bazasının formalaşdırılması üzrə fəaliyyət çərçivəsində "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanununda insan alverinin qurbanı olmuş şəxslərin ödənişsiz psixoloji yardım almaq hüququ, "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunda isə yeniyetmələrin ictimai mənəviyyata, milli və əxlaqi dəyərlərə zidd materiallardan müdafiəsi mexanizmləri təsbit olunub. Dövlət başçısının "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci ildə imzaladığı Fərmana əsasən "DOST" mərkəzlərində göstərilən sosial xidmətlər sırasında insan alveri qurbanlarının reabilitasiyasının təşkil edilməsi ilə bağlı tədbirlər də nəzərdə tutulub.

Bildirilib ki, insan alverinə qarşı mübarizədə əldə olunmuş nəticələr, əməkdaşlığın perspektivləri, birgə layihələrin əhatə dairəsinin genişləndirilməsi ötən il ABŞ Dövlət Departamentinin, bu ölkənin və bir sıra digər dövlətlərin Azərbaycandakı səfirliklərinin, Beynəlxalq Miqrasiya Təşkilatının, Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzin təmsilçiləri ilə görüşlərdə ətraflı müzakirə edilib. Mənşə və təyinat ölkələrindən olan Türkiyə, Özbəkistan, İran və Birləşmiş Ərəb Əmirliklərinin aidiyyəti dövlət orqanlarının nümayəndələri ilə görüşlər zamanı məlumat mübadiləsinin intensivliyinin artırılması, axtarışa elan edilmiş təqsirləndirilən şəxslərin ekstradisiyası və başqa vacib məsələlərlə bağlı razılıq əldə olunub.



***Vilayət Eyvazov:*** *İnsan alveri dünyada, eləcə də hər bir ölkədə sabitliyin əsaslarına, qanunun aliliyinə təhdid yaradan və insan hüquqlarını pozan əməllərdəndir*

Daxili İşlər Nazirliyinin 40-a yaxın ölkənin aidiyyəti dövlət strukturları ilə imzaladığı 100-dən çox müqavilə insan alverinin qurbanı olmuş Azərbaycan vətəndaşlarının digər dövlətlərdə yerinin operativ müəyyən edilməsində, bu cinayətləri törədənlər haqqında məlumatların toplanılmasında, birgə tədbirlərin keçirilməsində real nəticələr verməkdədir. Bununla yanaşı, bir sıra mötəbər beynəlxalq qurumlar, o cümlədən BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq, Beynəlxaq Miqrasiya və digər təşkilatlarla həyata keçirilən birgə işlərin böyük bir hissəsi bilavasitə insan alveri probleminə və onun həlli yollarına həsr olunub. Məcburi əməyin qarşısının alınması, bu hüquqazidd əməllərə şərait yaradan halların aradan qaldırılması ilə bağlı qarşıda duran vəzifələr də planlı şəkildə yerinə yetirilib.



***Eldar İbrahimov:*** *"Aqrar sığorta haqqında" qanun fermerlərin maliyyə mənbələrinə çıxışını asanlaşdıracaq*

Diqqətə çatdırılıb ki, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Əmək Münasibətlərinin Monitorinqi Mərkəzi tərəfindən aparılan yoxlamalarla 79 tikinti obyektində 946 nəfərin əmək və ya xidməti müqavilə olmadan işləməsi aşkar edilib. Yol verilmiş pozuntularla bağlı 6 təşkilat barədə Respublika Prokurorluğu tərəfindən cinayət işləri başlanılıb, 35-i haqqında 527 min manat məbləğdə inzibati cərimə, 27-si barədə 468 min manat vergi sanksiyası tətbiq olunub.

Ölkədə olma və yaşama qaydalarını pozan 19 min 210 əcnəbinin inzibati məsuliyyətə cəlb edilməsi və onlardan 3740 nəfərinin respublikanın hüdudlarından çıxarılması da məcburi əməyin profilaktikasında mühüm əhəmiyyət kəsb edib. Uşaq əməyinin istismarının qarşısının alınması məqsədilə keçirilmiş tədbirlər zamanı ailə mühitindən, pedaqoji və ictimai təsir vasitələrindən kənarda qalan, küçələrdə işləyən və dilənçilik edən 450 uşaq müəyyən olunub. Aparılmış yoxlamalarla həmin uşaqların insan alverinin və ya məcburi əməyin qurbanı olması təsdiqlənməyib.

Bildirilib ki, keçirilmiş monitorinqlər nəticəsində baxımsız qalmış 75 yetkinlik yaşına çatmayana və onların valideynlərinə ixtisaslı hüquqi və psixoloji yardım göstərilib, həmçinin övladlığa götürülmüş, qəyyumluğa və himayəyə verilmiş 143 uşağın hər biri sosial yardımlarla əhatə olunub. İnsan alveri cinayətlərinin aşkarlanması və təqsirkar şəxslərin məhkəmə məsuliyyətinə verilməsi sahəsində fəaliyyət, əvvəlki illərdə olduğu kimi, hesabat dövründə də məqsədyönlü xarakter daşıyıb. Həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə 144 insan alveri, 4 məcburi əmək, habelə insan alveri məqsədilə sənədlərlə qanunsuz hərəkətlərlə əlaqədar 35 cinayət qeydə alınıb, 28 nəfərdən ibarət 13 cinayətkar qrup zərərsizləşdirilib.

Azərbaycanda da dövlətimizin güclü siyasi iradəsi sayəsində insan alverinə qarşı mübarizədə dünya standartlarına uyğun institusional islahatlar aparılıb, zəruri təşkilati və praktiki tədbirlər həyata keçirilib.

Qeyd olunub ki, idarələrarası əməkdaşlığın möhkəmləndirilməsi, o cümlədən İnsan Alveri Qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizmi çərçivəsində fəaliyyət göstərən 14 mərkəzi icra hakimiyyəti orqanının nümayəndələrindən ibarət İdarələrarası Komissiyanın fəaliyyəti də səmərəli olub.

İnsan alverinin doğurduğu təhlükələr barədə ictimaiyyətin məlumatlandırılması işində vətəndaş cəmiyyəti nümayəndələrinin və kütləvi informasiya vasitələrinin iştirakı ilə respublikanın bütün şəhər və rayonlarında 237 mədəni-kütləvi tədbir, o cümlədən çoxsaylı treninq və seminarlar keçirilib. Profilaktik iş, demək olar ki, əksər məktəbləri, lisey, kollec və uşaq evlərini əhatə edib.

Həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə beynəlxalq cinayətkar şəbəkənin ölkəmizdə fəaliyyət göstərməsinin qarşısı alınıb, 2 mütəşəkkil dəstə, 58 cinayətkar qrup zərərsizləşdirilib. Müəyyən edilmiş 356 qurbandan 312-si təhlükəsiz sığınacaqlara yerləşdirilib və hər birinə birdəfəlik müavinət, 280 qurbana isə Kömək Fondundan yardımlar verilib. Daha 124 nəfər işlə təmin edilib, 188 nəfər peşə kurslarına cəlb olunub və onların bir çoxu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Yardım Mərkəzlərində qeydiyyata götürülüb. Səhiyyə Nazirliyi tərəfindən 706 insan alveri qurbanına və potensial qurbana tibbi yardım göstərilib.



***Siyavuş Novruzov:*** *Ölkəmizdə insan alverinə qarşı güclü mübarizə aparılır*

Müzakirələr zamanı çıxış edən Yeni Azərbaycan Partiyası (YAP) İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov illik məlumatı müsbət qiymətləndirib. S.Novruzov bildirib ki, ölkəmizdə insan alverinə qarşı güclü mübarizə aparılır. Onun sözlərinə görə, dünyanın bir sıra regionunda müharibələr, münaqişələr artdığı üçün insan alveri də artır: **"Eyni zamanda, insan orqanlarının alveri də bu münaqişələr nəticəsində artır. Bu gün insan orqanlarının alveri, qanunsuz əməyə cəlb olunmaq kimi problemlər də ciddi narahatlıq doğurur. Biz çalışmalıyıq ki, bu problemlər ölkəmizə idxal olunmasın. Belə hallarla mübarizə təkcə hüquq-mühafizə orqanlarının deyil, hər bir vətəndaşın işidir. Bütün cəmiyyətimiz buna qarşı mübarizə aparmalıdır".**

İclasda çıxış edən digər millət vəkilləri də illik məlumatı müsbət qiymətləndiriblər. Müzakirələrin sonunda Azərbaycanın İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorunun 2018-ci il üzrə illik məlumatı qəbul olunub.

Daha sonra "Azərbaycan Respublikası Hökuməti ilə Paraqvay Respublikası Hökuməti arasında diplomatik, rəsmi və ya xidməti pasportlara malik şəxslər üçün viza tələbinin qarşılıqlı olaraq aradan qaldırılması haqqında" Saziş təsdiq edilib. Sonra "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" qanunda dəyişiklik edilməsi məsələsinə baxılıb. Bu barədə birinci vitse-spiker, parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov məlumat verib. Onun təqdimatından sonra qanun layihəsi qəbul olunub.

İclasda həmçinin "Aqrar sığorta haqqında" qanun layihəsi birinci oxunuşda müzakirəyə çıxarılıb. Sənəd haqqında məlumat verən parlamentin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov bildirib ki, günün tələbinə uyğun olaraq aqrar sahədə sığortanın geniş tətbiqinə, bu sahədə işlək mexanizmin təmin olunmasına ciddi ehtiyac yaranıb: **"Azərbaycan Prezidentinin imzası ilə Milli Məclisə daxil olmuş yeni qanun layihəsi aqrar sığortanın təkmilləşməsinə xidmət edəcək, ölkədə idxaldan asılılığın azalmasına və ixrac potensialının artmasına təkan verəcək, ərzaq təhlükəsizliyinin güclənməsinə ciddi təsir göstərəcək. "Aqrar sığorta haqqında" qanun fermerlərin maliyyə mənbələrinə çıxışını da asanlaşdıracaq".**

Müzakirələr zamanı millət vəkilləri Tahir Rzayev, Musa Quliyev və digərləri çıxış edərək qanunun əhəmiyyətindən danışıblar. Müzakirələrdən sonra sənəd birinci oxunuşda qəbul olunub.

Millət vəkilləri iclasda digər qanunlara da əlavə və dəyişiklikləri müzakirə ediblər. Qeyd edək ki, iclasda bütövlükdə 22 məsələ müzakirəyə çıxarılaraq qəbul olunub.

**Nardar BAYRAMLI**

# Heç kim, heç bir qüvvə Azərbaycanla təzyiq, təhdid, diktə dili ilə danışa bilməz



***Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini, YAP Siyasi Şurasının üzvü Məlahət İbrahimqızı www.yap.org.az saytına müsahibə verib:***

**- Məlahət xanım, bu gün Azərbaycan dünyada böyük nüfuza sahib olan ölkədir. Bu baxımdan, Azərbaycan-Avropa İttifaqı münasibətlərinin hazırkı səviyyəsini necə dəyərləndirirsiniz?**

- Ümumiyyətlə, Azərbaycan hazırda dünyada etibarlı tərəfdaş kimi qəbul olunur. Ümummilli Liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi nəticəsində ötən illər ərzində Azərbaycanın beynəlxalq müstəvidə nüfuzu əhəmiyyətli dərəcədə artıb. Bu gün ölkəmiz bir sıra beynəlxalq təşkilatların aparıcı üzvlərindən biridir, həmin qurumların işində fəal iştirak edir.

Bu mənada, Azərbaycanla Avropa İttifaqı arasında münasibətlərin də yüksək səviyyədə olduğunu qeyd edə bilərik. Bilirsiniz ki, tərəflər arasında gələcək münasibətləri özündə ehtiva edən sazişə dair danışıqlar davam edir və bu göstərir ki, Avropa İttifaqı Azərbaycanı strateji tərəfdaşı hesab edir. Bu fakt bir daha Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətə etimad və inamın ifadəsidir.

Bilirsiniz ki, Avropa strukturlarının, o cümlədən Avropa İttifaqının öz prinsipləri var. Bu təşkilat Azərbaycanla əməkdaşlıq məsələlərində ölkəmizin siyasətinə, regional və beynəlxalq roluna, dövlət rəhbərliyinin daxili və xarici siyasətinə diqqət yetirir. Bu gün Azərbaycan mühüm enerji siyasəti həyata keçirir. Cənub Qaz Dəhlizi, TANAP və TAP kimi qlobal layihələr Avropanın enerji təhlükəsizliyində müstəsna rol oynayır. Eləcə də Bakı-Tbilisi-Qars dəmir yolu xətti dünyada dəmir İpək Yolu kimi dəyərləndirilir. Ölkəmiz, eyni zamanda, mühüm tranzit əhəmiyyətə malikdir. Təbii ki, bu qlobal layihələrin reallaşması Prezident İlham Əliyevin uzaqgörən və müdrik siyasətinin nəticəsidir. Ona görə də Avropa İttifaqı ölkəmizlə əlaqələrin gücləndirilməsinə böyük əhəmiyyət verir.

Azərbaycan gənc dövlətdir, bu il müstəqilliyimizin 28-ci ilini yaşayırıq. Avropada böyük tarixi olan, bərqərar olmuş dəyərlər var. Onu da deyim ki, demokratiyanın sonu yoxdur. Azərbaycan da gənc dövlət kimi Avropanın qabaqcıl təcrübəsini öyrənir. Biz bu təcrübədən istifadə edərək təhsilimizi, səhiyyəmizi gücləndirəcəyik, yeni Avropanın əldə etdiyi nailiyyətlərdən bəhrələnəcəyik. Eyni zamanda, qanunvericiliyin inkişafı baxımından da, Avropa İttifaqı ölkələrinin təcrübəsindən yararlanmaq faydalıdır. Bununla yanaşı, Avropa İttifaqı da Azərbaycandan bəhrələnəcək. Belə bir mürəkkəb regionda Azərbaycan Avropa üçün böyük önəm kəsb edir. Qeyd etdiyim kimi, mürəkkəb coğrafiyada yerləşən ölkəmiz Prezidentimizin qətiyyətli siyasəti nəticəsində qlobal layihələr reallaşdırıb.

Onu da qeyd edim ki, Azərbaycan Avroatlantik strukturların, xüsusilə NATO-nun etibarlı tərəfdaşlarından biridir. Bu mənada, belə bir sazişin imzalanması həm Azərbaycan, həm də Avropa İttifaqı üçün önəmlidir. Bizim üçün həyati əhəmiyyət kəsb edən məsələ Dağlıq Qarabağ münaqişəsinin həll olunmasıdır. Azərbaycanla Avropa İttifaqı arasında imzalanacaq sazişdə Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin tanınması Prezident İlham Əliyevin qətiyyətinin nəticəsidir. Ona görə də sazişin imzalanmasından sonra Azərbaycan xalqı üçün yeni inkişaf perspektivləri açılacaq.

**- Ölkəmizin uğurlu inkişafından danışdınız. Amma bəzi dairələr Azərbaycan haqqında mənfi rəy formalaşdırmağa çalışırlar. Buna münasibətiniz necədir?**

- Bu, çox təəssüf doğurur. Yaxşı olardı ki, ölkəmizdə görülən bu möhtəşəm işləri anti-Azərbaycan dairələrin əlində alətə çevrilən, müstəqil inkişafımıza qarşı həmin dairələr tərəfindən təzyiq, təsir mexanizmi kimi istifadə edilən, edilməyə çalışılan bəzi "sapı özümüzdən olan baltalar" da görsünlər, duysunlar, anlasınlar. Bilsinlər ki, heç kim, heç bir qüvvə artıq Azərbaycanla təzyiq, təhdid, diktə dili ilə danışa bilməz. Bu yöndə cəhdlər yersiz və əbəsdir. Atdıqları bumeranq kimi yalnız özlərinə dəyəcək, özlərini əzib keçəcək. Atalar məsəlində deyildiyi kimi, yel qayadan heç nə apara bilməz və bilməyəcək. Ona görə yaxşı olardı ki, onlar da səhvlərini, yanlışlarını, nəhayət, anlasınlar, oyuncaq kimi istifadə edilməkdən qurtulsunlar və düz yola gəlsinlər. Sosial şəbəkələr vasitəsilə şər, böhtan kampaniyası aparmaq, insanları təhqir etmək, mənəvi terrora məruz qoymaq yolverilməzdir. Bütün bunların qarşısı qanun çərçivəsində alınmalıdır. Demokratiya, söz azadlığı o demək deyil ki, hər kəs istənilən zaman başqalarını təhqir edə bilər. Bu reallıq dünya ölkələrində də narahatlıq doğurur və bunun qarşısını almaq üçün lazımi addımlar atılır.

**- Kütləvi informasiya vasitələrində ölkəmizdə yeni bir partiyanın yaradılacağı haqqında məlumat yayılıb. Həmin təşkilatın da radikal mövqedən çıxış edəcəyi haqqında fikirlər səsləndirilir. Bu barədə nə deyə bilərsiniz?**

- Azərbaycan demokratik dövlətdir. Siyasi plüralizm, söz azadlığı gündən-günə daha da genişlənir. Amma bu gün heç bir şəxs və ya qurum Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti İlham Əliyevə rəqib ola bilməz. Bu gün ölkəmizdə konstruktiv siyasi partiyalar fəaliyyət göstərir, bütövlükdə rəsmi qeydiyyatdan keçən siyasi partiyaların sayı 50-dən çoxdur.

Müəyyən partiyalar isə destruktivdir və radikal mövqedən çıxış edir. Onlar ölkəmizin inkişafını istəməyən xarici dairələrdən dəstək alırlar və ölkəmizə qarşı qarayaxma kampaniyası aparırlar. Bu təşkilatlar Azərbaycanın nailiyyətlər qazanmasını istəmir, müxtəlif yollarla varlıqlarını qorumağa çalışırlar.

Əlbəttə ki, bundan sonra kimsə ailə üzvlərindən, qohumlarından ibarət hansısa təşkilat, partiya yarada bilər. Kütləvi informasiya vasitələrinin yaydığı məlumata görə, kimlərsə yeni siyasi partiya yaratmağa çalışır. Bu siyasi partiyanın da radikallığa meyilli və xaricdən ölkəmizi istəməyən dairələrdən dəstək almağa ümidli olması görünür. Belələrinin bioqrafiyası Azərbaycan cəmiyyətinə yaxşı tanışdır. Onların bir çoxu dünənə qədər hakimiyyətə mədhiyyələr deyirdilər. Bu kimi faktlar onların nə qədər saxta olduqlarını göstərir. Beləl̈əri cəmiyyətimizdən heç bir dəstək almayacaqlar.

Bu gün bütün dünya cənab İlham Əliyevi təkcə Azərbaycanın Prezidenti kimi deyil, bütövlükdə regionun siyasi lideri kimi qəbul edir. Belə bir halda, kimlərinsə yeni bir siyasi partiya yaradıb destruktiv fəaliyyət göstərməsinin heç bir perspektivi yoxdur. Azərbaycan cəmiyyəti radikalları heç vaxt qəbul etməyib və bundan sonra da qəbul etməyəcək.

# Pərvin Kərimzadə: Ölkəmiz dünyada sülhün təmin edilməsinə öz töhfələrini verir

**"Bakıda "Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında keçirilən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu hazırda dünya üçün böyük önəm daşıyan dəyərlərin qorunmasına öz sanballı töhfəsini verir. Qlobal iqtisadi və mədəni əhəmiyyət daşıyan, multikultural dəyərləri təbliğ edən tədbirlərin keçirildiyi məkan kimi ölkəmizin seçilməsi bir daha göstərir ki, Azərbaycan nəinki coğrafi, həm də siyasi, iqtisadi və mədəni cəhətdən beynəlxalq mərkəzlərdən birinə çevrilib. Dünya miqyasında çox böyük nüfuza malik siyasətçiləri, ictimai xadimləri birləşdirən toplantıların, konfransların, forumların Bakıda keçirilməsi ölkə Prezidenti İlham Əliyevin həyata keçirdiyi sülhsevər siyasətin uğurudur. Tarixən əməkdaşlıq məkanı olan Azərbaycanın beynəlxalq tədbirlərə ev sahibliyi etməsi də ölkələr, xalqlar arasında körpü rolundan, xoş məramından irəli gəlir".** Bu fikirləri Milli Məclisin deputatı Pərvin Kərimzadə deyib.

P.Kərimzadə bildirib ki, artıq Azərbaycan 5-ci dəfə möhtəbər tədbirə ev sahibliyi etməklə sülhə, əməkdaşlığa və dialoqa sadiqliyini nümayiş etdirir. Onun sözlərinə görə, "Bakı Prosesi"nin çox önəmli tərkib hissəsi olan Forum dünyada baş verən aktual məsələlərin həlli yolunda müzakirələr üçün əvəzolunmaz platformadır: **"Forum sayəsində beynəlxalq təşkilatların nümayəndələri, mütəxəssislər dünyada qarşılaşdıqları çətinliklərlə bağlı fikirlərini bölüşür və dünyada sülhün bərqərar olması məqsədilə mövcud problemlərin həll yollarını axtarırlar.**



**Təəssüflər olsun ki, dünyada hələ də müharibələrə çağırışlar səsləndirilir, qruplaşmalar, münaqişələr, terror hadisələri baş verir. Fərqli sivilizasiyaların, mədəniyyətlərin, dinlərin arasında anlaşmanın, əməkdaşlığın optimal yollarının tapılması üçün mədəniyyətlərarası dialoqa, anlaşmaya daha çox ehtiyac duyulduğu bir vaxta Bakı bütün dünyanın düşünən beyinlərini bir araya toplayaraq, gündən-günə artan gərginliyə, düşmənçilik həddinə çatan münasibətlərə son qoymağa, insanları birliyə, sülhə və dialoqa çağırır. Artıq beşinci dəfədir ki, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu müxtəlif milli, mədəni, dini, etnik mənsubiyyətlərə məxsus insanlar arasında intensiv dialoqun yeni, zəruri forma və səviyyələrini yaradır, bütün dünyaya öz töhfəsini verəcəyinə inamını ifadə edir. Ən əsası isə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu həyəcan siqnalı çalaraq insanları dünyamızda ən çox ehtiyac duyulan mədəniyyətlərarası dialoqa səsləyir. Dövlətimizin başçısının V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində söylədiyi kimi: "Azərbaycan dünyaya mədəniyyətlərarası dialoqun ölkələri yaxınlaşdırmağın, müxtəlif mədəniyyət və sivilizasiya nümayəndələri arasında yeni körpülərin qurulmasının yeganə yol olduğunu nümayiş etdirir".**

Millət vəkili qeyd edib ki, Bakıda davamlı keçirilən bu humanist tədbirlər nəinki dünyaya multikultural dəyərlərin inkişafı nümunəsidir, eyni zamanda, böyük siyasətçilərin, nüfuzlu beynəlxalq təşkilatların yüksək dəyərləndirdiyi bir beynəlxalq tədbirdir: **"Xalqları bəşəri dəyərlər ətrafında birləşdirmək, sülhə çağırış, kimi humanist ideyaları tərənnüm edən Forumun ildən ilə nüfuzu artır. Yaxşı bilirik ki, mədəniyyətlərarası əməkdaşlıq məsələsi uzunmüddətli və mürəkkəb bir prosesdir. Belə bəşəri dəyərlərin bərqərar olmasında, humanist məsələlərin təbliğ edilməsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xüsusi rolu olduğunu dünya ictimaiyyəti yüksək dəyərləndirir və layiqincə qiymətləndirirlər. Dialoq, anlaşma, sülh, sabitlik, mehriban birgə yaşama, tolerantlıq kimi şüarların və təbliğat işlərinin yayılmasının olduqca vacib olduğunu vurğulayan Forum iştirakçıları Prezident İlham Əliyevə belə bir təşəbbüsü reallaşdırdığına görə təşəkkür ediblər. Bəli, bu gün V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu bir daha təsdiq edir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan Respublikası qütblər arasında, sadəcə, kəsişmə nöqtəsi, körpü rolunu oynamır, həm də dünyada sülhün və təhlükəsizliyin təmin edilməsinə öz müsbət töhfələrini verir".**

# Hikmət Babaoğlu: Əli İnsanovun qisasçılıq mövqeyindən çıxış etməsi əslində onun düşmənimiz olan ermənilərin saxta təbliğatına daha yaxın olduğunu göstərir



**"İctimai və siyasi yaddaşda adı rüşvətxorluq və korrupsiya ilə assosiasiya olunan Əli İnsanovun siyasətçi adına iddia etməsi mümkün deyil. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin humanist addımı nəticəsində azadlığa çıxan sabiq səhiyyə naziri Əli İnsanovun son açıqlamalarında qisasçılıq mövqeyindən çıxış etməsi, Azərbaycanın milli məsələləri ilə bağlı dilə gətirdiyi ifadələr bu adamın düşüncəsinin və siyasi mövqeyinin əslində düşmənimiz olan ermənilərin saxta təbliğatına daha yaxın olduğunu göstərir".** Bu fikirləri Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu deyib.

**"Siyasət insanları birləşdirmək, uzlaşdırmaq və milli maraqları qorumaq sənətidir. Azərbaycan xalqının siyasi yetkinliyi, siyasəti həmişə bu kontekstdə dərk etməsi, xalqın birliyinin və milli maraqlarının qorunmasını özünə ən ümdə vəzifə kimi müəyyənləşdirməsi onun lider seçimində daim özünü göstərib. Ə.İnsanovda isə belə keyfiyyətlər yoxdur, o, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı mövqeyini açıqlayarkən Azərbaycanın milli davasına xəyanət edir, qisasçılıq hissi ilə çıxış edərək Azərbaycanın milli bütövlüyünü pozan fikirlər səsləndirir. Buna görə də onun siyasi iddia ilə çıxış etməyə mənəvi haqqı çatmır"**, - deyə Hikmət Babaoğlu qeyd edib.

Onun sözlərinə görə, Ə.İnsanovun "boğazına kəfən dolayıb" siyasi meydana atılacağı barədə çıxışları əslində Azərbaycana siyasi terror ənənəsi gətirməyə hesablanıb ki, bu da yolverilməzdir. Onun səsləndirdiyi fikirlərin hamısının cəmi isə o deməkdir ki, Ə.İnsanov ölkənin milli maraqlarına, əldə olunan nailiyyətlərə, Azərbaycanın beynəlxalq nüfuzunun artmasına qısqanclıqla yanaşır, həmçinin çıxışlarında yeri gəldi-gəlmədi Qərbin adını çəkməklə, hətta açıq şəkildə qərbyönümlü təşkilat yaradacağını elan etməklə özünə havadar axtarır. Ancaq Qərbdə də dərk edirlər ki, belə radikal mövqedən çıxış edən, rüşvətxorluq və korrupsiyaya görə layiqli cəza alan keçmiş məmurdan siyasətçi düzəltmək olmaz.

Millət vəkili bildirib ki, Ə.İnsanovun açıqlamaları və antimilli mövqeyi Azərbaycanın siyasi gündəminə əsla təsir edə bilməz: **"Çünki onun dövlətin icraedici hakimiyyətində yüksək vəzifə tutduğu, nazir vəzifəsində işlədiyi vaxtlardakı fəaliyyəti ilə səhiyyə sahəsini bərbad günə qoyması xalqın yadından çıxmayıb. Eyni zamanda, Ə.İnsanovun korrupsiya və rüşvətxorluqda ittiham olunaraq törətdiyi cinayətlərə görə həbsxanada cəza çəkməsi də xalqa bəllidir. Bütün bunlar Azərbaycan xalqının gözü qarşısında baş verib və bizim cəmiyyətin ictimai yaddaşı əsla qısa deyil. Ona görə də adı ictimai yaddaşda korrupsiya ilə assosiasiya olunan bir şəxsin siyasətə qayıtması mümkün deyil".**

# YAP Kəlbəcər rayon təşkilatı Gənclər Birliyinin V hesabat-seçki konfransı keçirilib



Gəncə şəhərində yerləşən Kəlbəcər rayon İcra Hakimiyyətinin inzibati binasında Yeni Azərbaycan Partiyası (YAP) Kəlbəcər rayon təşkilatı Gənclər Birliyinin V hesabat-seçki konfransı keçirilib. Konfransda YAP Kəlbəcər rayon təşkilatının sədri Akif Əsgərov çıxış edərək partiyanın yaranmasından, onun ölkənin ictimai-siyasi həyatında oynadığı roldan bəhs edib. A.Əsgərov ölkədə gənclərə olan diqqət və qayğıdan söz açaraq qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu gənclər siyasəti hazırda Prezident İlham Əliyev tərəfindən dönmədən və uğurla davam etdirilir.

Daha sonra YAP Kəlbəcər rayon təşkilatı Gənclər Birliyinin sədr əvəzi Hikmət Bağırov hesabat məruzəsi ilə çıxış edib. Ötən dövr ərzində görülən işlərdən və qarşıda duran vəzifələrdən danışan H.Bağırov bildirib ki, YAP Kəlbəcər rayon təşkilatına üzv olan gənclər rayonun ictimai-siyasi həyatında xüsusi fəallıq göstərirlər. H.Bağırov çıxışında onu da qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevin ölkədə uğurla həyata keçirdiyi siyasi kursa uyğun olaraq YAP Kəlbəcər rayon təşkilatının sağlam düşüncəli, vətənpərvər, yüksək intellektə və biliyə sahib gəncləri ölkəmizin inkişafı üçün daim çalışırlar.

Tədbirdə çıxış edən YAP Kəlbəcər rayon təşkilatı GB-nin üzvləri Göyüş Şəfizadə, Ləman Orucova, Hikmət Şahmuradov ölkədə aparılan sosial-iqtisadi inkişafdan, dövlətin gənclərə göstərdiyi diqqət və qayğıdan bəhs ediblər. Qocaman YAP üzvü Musa Əziz gənclərə öz tövsiyələrini verərək hər birini Yeni Azərbaycan Partiyasının təbliğatçısı olmağa çağırıb.

Sonra təşkilati məsələlərə baxılıb. YAP Kəlbəcər rayon təşkilatı GB-nin Şurası və İdarə Heyətinin tərkibi müəyyənləşdirilib. Gizli səsvermə nəticəsində Hikmət Bağırov YAP Kəlbəcər rayon təşkilatı Gənclər Birliyinin sədri seçilib. Tədbirin sonunda konfransda iştirak edən Kəlbəcər rayon İcra Hakimiyyətinin başçısı Aqil Məmmədov yeni seçilmiş tərkibə uğurlar diləyib.

# YAP Samux rayon təşkilatında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə tədbir keçirilib



Mayın 3-də Yeni Azərbaycan Partiyası (YAP) Samux rayon təşkilatında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə "Ulu Öndər Heydər Əliyev müasir Azərbaycanımızın qurucusudur" mövzusunda "dəyirmi masa" keçirilib.

Tədbiri giriş sözü ilə açan YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, azərbaycançılıq məfkurəsinin banisi, xalqımızın və dövlətimizin xilaskarı Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı tarixi xidmətlərindən danışıb. O qeyd edib ki, Ulu Öndər Heydər Əliyev Azərbaycanı parçalanmaq təhlükəsi və tənəzzüldən xilas edərək tərəqqi yoluna çıxarıb, Ümummilli Liderin əsasını qoyduğu inkişaf siyasəti ölkəmizi qüdrətli və nüfuzlu dövlətə çevirib. Gündüz Bayramov əlavə edib ki, müasir müstəqil Azərbaycan Ümummilli Lider Heydər Əliyevin ideyaları əsasında uğurla inkişaf edir. Onun sözlərinə görə, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində Azərbaycan möhtəşəm nailiyyətlər qazanıb, ölkəmizin beynəlxalq mövqeyi möhkəmlənib.

YAP Samux rayon təşkilatının Gənclər Birliyinin sədri Qurban Həsənov Ulu Öndər Heydər Əliyevin daim gənclərə xüsusi diqqət və qayğı göstərdiyini deyib. Onun sözlərinə görə, ölkəmizdə həyata keçirilən səmərəli və məqsədyönlü dövlət gənclər siyasətinin nəticəsi kimi, Azərbaycan gəncləri ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında fəal iştirak edirlər.

Daha sonra çıxış edənlər - YAP Samux rayon təşkilatı Gənclər Birliyinin üzvləri Aytən Məmmədova, Ülviyyə Salmanova, İlahə Əsgərova, Xədicə Qasımova və Rəşid Şabanov Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətlərindən danışıblar. Eyni zamanda, qeyd edilib ki, bu gün ölkəmizdə gənclər müxtəlif sahələrdə çox uğurla fəaliyyət göstərirlər, ölkəmizin ümumi inkişafına böyük töhfə verirlər.

# Paytaxt məktəbliləri arasında "Yunior liqa"nın finalçıları bəlli olub



Paytaxt məktəbliləri arasında "Yunior liqa" Şən və Hazırcavablar Klubu (ŞHK) respublika çempionatının yarımfinal mərhələsi keçirilib. Bu barədə Bakı Şəhəri üzrə Təhsil İdarəsi (BŞTİ) məlumat verib. Bildirilib ki, Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında təşkil olunmuş çempionatın yarımfinal mərhələsi iki gün davam edib. İlk olaraq yarışda 167, 236 nömrəli tam orta məktəblər, 16 nömrəli Texniki-humanitar lisey, 160 nömrəli Klassik Gimnaziya, "Ankara" liseyi, "XXI əsr" Təhsil kompleksinin komandaları yarışıblar. Növbəti gün paytaxtakı 17, 189-190, 210 nömrəli tam orta məktəblər, 6, 20 və 23 nömrəli məktəb-liseylərin komandaları görüşüblər.

Nəticələrə əsasən, 17, 189-190, 167 nömrəli tam orta məktəblər, 16 nömrəli Texniki-humanitar lisey, 6 və 23 nömrəli məktəb-liseylər, "XXI əsr" Təhsil kompleksinin komandaları finala vəsiqə qazanıblar. Komandaların çıxışları münsiflər heyəti tərəfindən qiymətləndirilib.

Təhsil Nazirliyi, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi, Azərbaycan Şən və Hazırcavablar Klubunun birgə təşkil etdiyi çempionatın əsas məqsədi ŞHK-nın ənənələrini yaşatmaq, yetişməkdə olan nəslin bu istiqamətdə yaradıcı potensialını üzə çıxarmaqdan ibarətdir.

**MÜŞFİQƏ**

# Bakıda Ümumdünya Mətbuat Azadlığı Gününə həsr olunan konfrans keçirilib




Mayın 3-də Beynəlxalq Mətbuat Mərkəzində Azərbaycan Mətbuat Şurasının (MŞ) təşəbbüsü ilə 3 may - Ümumdünya Mətbuat Azadlığı Günü ilə əlaqədar "Mətbuat azadlığı: bəşəri mahiyyət və Azərbaycan reallıqları" mövzusunda konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə tədbir iştirakçıları Fəxri xiyabana gedərək xalqımızın Ümummilli Lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad ediblər.

Sonra "Əkinçi" qəzetinin yaradıcısı, Azərbaycan mətbuatının banisi Həsən bəy Zərdabinin məzarı ziyarət olunub.

Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov konfransda çıxış edərək bildirib ki, bu gün Azərbaycan mətbuatı kifayət qədər inkişaf edən realist, müstəqil, hadisələrə milli maraqlardan baxmağa qadir olan mətbuatdır. O, Azərbaycan mətbuatının dünyanın inkişaf edən mediasının tərkib hissəsi olduğunu vurğulayıb. Qeyd edib ki, Azərbaycanda baş verən hadisələr bu və ya digər yolla - istər media, istərsə də sosial şəbəkələr vasitəsilə ictimaiyyətə çatdırılır. Bu gün Azərbaycanda 3 milyon insan sosial şəbəkələrdən istifadə edir.

Mətbuat Şurasının İdarə Heyətinin üzvü, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu deyib ki, Azərbaycanda söz və mətbuat azadlığı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün söz azadlığının hüdudları o qədər genişdir ki, bu, medianın inkişafı deməkdir. Bu günün jurnalistləri çox xoşbəxtdirlər ki, belə azad şəraiti olan mətbuat orqanlarında çalışırlar. Hikmət Babaoğlu vurğulayıb ki, milli mətbuatımız bütün dövrlərdə qabaqcıl ideyaların carçısı və daşıyıcısı olub.

MŞ sədrinin müavini, Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) prezidenti Umud Mirzəyev deyib ki, bu gün informasiya bolluğu şəraitində yalanla həqiqəti ayırd etmək çətin olur. Bu isə qlobal dünyada müəyyən mənfi hallara yol açır. Buna görə də informasiya seçimində diqqətli olmaq lazımdır.

Mətbuat Şurası İdarə Heyətinin üzvü Azər Həsrət, İdarə Heyətinin üzvü, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid, İdarə Heyətinin üzvü, "Bakı-xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev, İdarə Heyətinin üzvü, "Xalq cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli, Şura sədrinin müavini, Jurnalistlərin Həmkarlar İttifaqının rəhbəri Müşfiq Ələsgərli, "Xalq qəzeti"nin əməkdaşı Tahir Aydınoğlu və başqaları çıxış edərək Azərbaycanda söz və mətbuat azadlığının təmin olunması, mətbuatın inkişafı istiqamətində görülən işlərdən danışıblar.

Konfrans müzakirələrlə davam edib.

# Türkiyənin Atılım Universitetinin nümayəndə heyəti Memarlıq və İnşaat Universitetində olub



Mayın 3-də Azərbaycan Memarlıq və İnşaat Universitetində (AZMİU) Türkiyənin Atılım Universitetinin nümayəndələri ilə görüş keçirilib. Görüşdə AZMİU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, professor Nərgiz Abdullayeva, elm və texnika üzrə prorektor, professor Arif Şərifov, xarici əlaqələr şöbəsinin müdiri Fərhad Əliyev, müdir müavini Könül Şirinova və digərləri iştirak ediblər.

Tədbirdə tərəflər təmsil etdikləri ali təhsil müəssisəsinin tarixi, fəaliyyəti, maddi-texniki bazası, tədris olunan ixtisaslar, bakalavr təhsil səviyyəsi və ikili diplom proqramları, magistr və doktorantura təhsil səviyyələrində tələbə-müəllim mübadiləsi imkanları haqqında məlumat veriblər.

Dövlətlərimiz arasında qardaşlıq münasibətlərinin dinamik inkişafını vurğulayan Beynəlxalq əlaqələr üzrə prorektor, professor Nərgiz Abdullayevanın sözlərinə görə, AZMİU-da xarici tələbələrin 80%-ni türkiyəli tələbələr təşkil edir.

Görüşdən məmnun olduqlarını bildirən Atılım Universitetinin prorektoru, professor Sərkan Əryılmaz təmsil etdiyi ali təhsil müəssisəsi haqqında geniş təqdimatla çıxış edib. Bildirib ki, 1996-cı ildə yaradılan, Türkiyənin paytaxtı Ankara şəhərində yerləşən universitet fəaliyyət göstərdiyi qısa zaman ərzində "QS İnkişaf Etməkdə olan Avropa və Mərkəzi Asiya" regionu üzrə reytinq cədvəlində, "Times Higher Education World University Ranking"lərdə əhəmiyyətli mövqelər tutub: **"Hədəfimiz Türkiyədə ilk 10, dünyanın isə 500 universiteti arasında yer almaqdır. Universitetimizdə 9 mindən çox tələbə təhsil alır. Burada 8 fakültə var. Tələbələrin 40%-i mühəndislik fakültəsində oxuyur. Universitetimizdə tədris türk və ingilis dillərində aparılır".**

Görüşdə həmçinin qarşılıqlı təcrübə, simpozium, seminarların təşkil edilməsi, əməkdaşlığın perspektivləri və digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

**Müşfiqə BAYRAMLI**

# BDU və Türkiyənin Atılım Universitetinin əməkdaşlıq imkanları müzakirə edilib



Atılım Universitetinin prorektoru, professor Sərkan Əryılmazın başçılıq etdiyi nümayəndə heyəti mayın 3-də Bakı Dövlət Universitetində (BDU) olub. Görüşdə bu ali məktəbin xarici tələbələrlə iş üzrə dekanı Gülheyran Rəhimova, Beynəlxalq proqramlar şöbəsinin müdiri Elmira İsmayılova və başqaları iştirak ediblər.

Əməkdaşlıq imkanlarının müzakirə olunduğu görüşdə müasir dövrdə beynəlxalq əlaqələrin gücləndirilməsinin, ali təhsil müəssisələrinin beynəlxalq rəqabət qabiliyyətinin artırılmasının əhəmiyyəti vurğulanıb. Həmçinin "Erasmus+" proqramı çərçivəsində əməkdaşlıq imkanları, beynəlxalq kredit mobilliyi və qarşılıqlı maraq kəsb edən digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Bir əsr tarixə malik universitetdə olmaqdan məmnunluğunu bildirən Türkiyənin Atılım Universitetinin prorektoru, professor Sərkan Əryılmaz təmsil etdiyi ali təhsil müəssisəsi haqqında geniş məlumat verib. Bildirib ki, 1996-cı ildə yaradılan Atılım Universiteti Türkiyənin paytaxtı Ankara şəhərində yerləşir. 9 mindən çox tələbənin təhsil aldığı ali məktəbdə tədris əsasən ingilis dilində aparılır. Burada 50-dən çox xarici ölkədən olan gənclər təhsil alırlar. Dünyanın ən müasir universal standartlarına uyğun təhsil verən universitetin hədəfi dünyanın reytinqli 500 universiteti arasında yer almaqdır.

Məlumat üçün bildirək ki, universitet fəaliyyət göstərdiyi qısa zaman ərzində "QS İnkişaf Etməkdə olan Avropa və Mərkəzi Asiya" regionu üzrə reytinq cədvəlində, "Times Higher Education World University Ranking"lərdə əhəmiyyətli mövqelər tutub.

Tədbirdə, eyni zamanda, universitetlərarası əlaqələr müzakirə olunub, əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə yaxın gələcəkdə memorandum imzalanması qərara alınıb.

**Müşfiqə BAYRAMLI**

AZƏRBAYCAN GƏNCİNİN TRİBUNASI

# Azərbaycan gəncləri Prezident İlham Əliyevin ətrafında sıx birləşərək ölkəmizin inkişafına öz töhfələrini verirlər

***Fəsli Nəbiyev:** Azərbaycan dövləti gənclərin milli ruhda tərbiyə almalarına xüsusi diqqət yetirir və həyata keçirilən ardıcıl tədbirlər məhz bu məqsədə xidmət edir*



Məlum olduğu kimi, hər bir ölkədə gənclər cəmiyyətin aparıcı qüvvəsidir. Azərbaycanda da gənclər cəmiyyətin bütün sferalarında aktiv iştirak edirlər. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasətinin başlıca məqsədi yeni nəslin fiziki, mənəvi-psixoloji cəhətdən sağlam yetişməsini, istedadlı gənclərin üzə çıxarılması və onların ölkənin inkişafına töhfə verməsini təmin etməkdir. Bu baxımdan, gəncliyin müasir dövrün tələbləri səviyyəsində, vətənpərvərlik ruhunda yetişməsi daim dövlətin diqqət mərkəzində saxlanılır.

### AZƏRBAYCANDA YÜKSƏK İNTELLEKTLİ GƏNC NƏSİL FORMALAŞIB

Prezident İlham Əliyev tərəfindən imzalanmış Dövlət proqramlarının icrası ölkədə gənclər siyasətinin daha da inkişaf etdirilməsinə təkan verib. Bu istiqamətdə normativ-hüquqi bazanın təkmilləşdirilməsi, gənclərin intellektual və yaradıcılıq potensialının inkişafı, onların iqtisadi proseslərdə fəal iştirakının təmin edilməsi baxımından xeyli iş görülüb. Həmçinin gənclərin idarəetmədə və vətəndaş cəmiyyətinin inkişafında iştirakı gücləndirilib, onların müstəqil fəaliyyəti üçün zəruri infrastruktur inkişaf etdirilib. Bütövlükdə, Azərbaycanda yüksək intellektli gənc nəsil formalaşıb. Bu gün öz bilik və bacarığı ilə ölkəmizdə, eləcə də dünyada Azərbaycanın adını yüksək tutan gənclərimiz var.

"Yeni Azərbaycan" qəzeti olaraq bu gündən başladığımız "Azərbaycan gəncinin tribunası" adlı rubrika da ölkəmizin ictimai-siyasi həyatında, elm, təhsil, iqtisadiyyat, idman sahələrində fəallıqları ilə seçilən gənclərimizin ictimaiyyətə tanıdılması məqsədi daşıyır. Rubrikamızın ilk qonağı isə Fəsli Nəbi oğlu Nəbiyevdir. Qeyd edək ki, Fəsli Nəbiyev 17 iyun 1997-ci ildə Bakı şəhərində anadan olub. 2003-2013-cü illərdə Heydər Əliyev adına Müasir Təhsil Kompleksində orta təhsilini aldıqdan sonra 2013-cü ildə Xəzər Universitetinin politologiya ixtisasına qəbul olub. O, 2017-ci ildə isə ADA Universitetində "Dövlət İdarəçiliyi" ixtisası üzrə magistr proqramına daxil olub və hal-hazırda II kursda təhsil alır. Fəsli Nəbiyev ictimai-siyasi proseslərdə fəal gənc kimi həmişə iştirak edir. Bu fəallığın nəticəsidir ki, 2017-ci ildə Yeni Azərbaycan Partiyasının (YAP) sıralarına qoşulan Fəsli 2018-ci ildən YAP Binəqədi rayon təşkilatı Gənclər Birliyinin sədri və təşkilatın təlimatçısı vəzifəsində fəaliyyət göstərir.

### TƏLƏBƏLİKDƏN İCTİMAİ FƏALİYYƏTƏ BAŞLAYAN FƏSLİ NƏBİYEV BİR SIRA BEYNƏLXALQ TƏDBİRLƏRİN İŞTİRAKÇISIDIR

O, ictimai fəaliyyətinin aktiv dövrünə bakalavr təhsilinin 3-cü kursunda başlayıb. Belə ki, həmin dövrdə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin və BMT-nin Azərbaycandakı nümayəndəliyinin təşkilatçılığı ilə keçirilən "MilliMUN" adlı beynəlxalq konfransda iştirak edib və bu konfransda fəal iştirakına görə "Ən yaxşı nümayəndə" mükafatı ilə təltif edilib. **"Bu konfransda iştirak etmək mənim üçün gələcək hədəflərimi müəyyənləşdirməkdə önəmli rol oynayıb. Çünki həmin konfransda iştirak etdikdən sonra mən öz üzərimdə daha çox işləməyə başladım və bunun kimi bir neçə beynəlxalq tədbirlərə qatıldım. 2017-ci ildə NATO Azərbaycan Məktəbinin Yay sessiyasında iştirak etmək üçün müraciət etdim və qəbul edildim. Burada da fəal iştirakıma görə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi tərəfindən diplomla mükafatlandırıldım. Bakalavr təhsilimin sonlarına yaxın artıq magistr təhsili haqqında düşünürdüm və qarşımda həm xaricdə, həm də öz ölkəmizdə təhsil almaq üçün imkanlar var idi. Lakin iştirak etdiyim layihələrdə ADA Universitetinin tələbələrinin fəallığını görmək məndə həmin təhsil ocağında biliyə yiyələnmək istəyi yaratdı və mən oraya qəbul oldum. Eyni zamanda, bakalavr təhsilim politologiya ixtisası olduğundan, qərara gəldim ki, ilk təcrübə kursumu məhz Yeni Azərbaycan Partiyasında keçim",** - deyən F.Nəbiyev bununla bağlı YAP Binəqədi rayon təşkilatına müraciət edib və təcrübə kursuna daxil olub. Təcrübə müddətində bir sıra tədbirlərin və layihələrin həyata keçirilməsində yaxından iştirak edən, bakalavr təhsilində aldığı bilikləri praktiki cəhətdən reallaşdırmaq imkanı əldə edən bu gənc ADA Universitetində təhsil aldığı müddətdə də burada keçirilən layihələrdə yaxından iştirak edib. **"Ötən il ADA Universiteti tərəfindən təşkil edilən beynəlxalq 4-cü Avropa İttifaqı Yay Məktəbində iştirak etdim və burada fəal iştirakıma görə mükafatlandırıldım. Bununla yanaşı, Azərbaycan Respublikası Gənclər Fondu tərəfindən elan edilmiş qrant müsabiqəsinin qalibi olaraq, fondun maliyyə dəstəyi ilə "Vətən sizə əmanətdir" adlı layihəni həyata keçirmişəm",** - deyə o vurğulayıb.

### DÖVLƏT BAŞÇISININ TÖVSİYƏLƏRİNƏ ƏMƏL ETMƏK GƏNCLƏR ÜÇÜN BAŞLICA VƏZİFƏDİR

Hal-hazırda F.Nəbiyevin rəhbərlik etdiyi YAP Binəqədi rayon təşkilatı Gənclər Birliyi gənclərin intellektual səviyyəsinin artırılması, onlara vətənpərvərlik, dövlətçilik, azərbaycançılıq ideologiyasının aşılanması, milli-mənəvi dəyərlərin mənimsənilməsi, ictimai-siyasi proseslərdə fəal iştirak etmələri üçün ardıcıl layihələr həyata keçirir. Bunlardan ən önəmlisi Ulu Öndər Heydər Əliyevin irsinin araşdırılması, öyrənilməsi və təbliğ edilməsi, həmçinin Prezident, partiyamızın Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən mühüm islahatlara, ölkəmizin hərtərəfli inkişafına hədəflənmiş fəaliyyətinə həsr olunmuş ideoloji işlərin aparılması, gənclərin maariflləndirilməsi üçün həyata keçirilən layihələrdir.

Fəsli Nəbiyev həmçinin deyib ki, Azərbaycan dövləti gənclərin milli ruhda tərbiyə almalarına xüsusi diqqət yetirir və həyata keçirilən məqsədyönlü tədbirlər məhz bu məqsədə xidmət edir: **"Buna paralel olaraq gənclərin intellektual potensialının artırılması, onların keyfiyyətli təhsil alması da diqqət mərkəzindədir. Çünki qloballaşma şəraitində ölkələrin inkişafını təmin edən mühüm faktorlardan biri biliyə əsaslanan iqtisadiyyatın inkişafı, eləcə də cəmiyyətin intellektual səviyyəsinin mütəmadi olaraq artırılmasıdır. Bu məsələdə, şübhəsiz ki, proqressiv və dinamik qüvvə olan gənclərin üzərinə böyük öhdəlik və məsuliyyət düşür. Azərbaycanda gənclərin intellektual inkişafı üçün bütün şərait yaradılıb və dövlət tərəfindən bu istiqamətdə ardıcıl, məqsədyönlü tədbirlər həyata keçirilir. Prezident İlham Əliyev fevralın 1-də Bakı Konqres Mərkəzində Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında qeyd edib ki, gənclər üçün əsas istiqamət, əlbəttə ki, təhsildir. "Mən bütün gənclərə üz tutub deyirəm ki, təhsilə çox böyük fikir versinlər. Çünki bugünkü dünyada bilik, savad ön plandadır. Bu gün dünya o qədər sürətlə inkişaf edir, texnologiyalar o qədər sürətlə qabağa gedir ki, bilik, savad olmadan həyatda öz layiqli yerini tapmaq çox çətindir. Gənclər peşəkar olmalıdırlar. İstənilən sahədə işləyən gənclər çalışmalıdırlar ki, öz peşəkarlıqlarını artırsınlar. Bizim gənclərimiz milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə almalıdırlar. Əsrlər boyu bizim xalqımız başqa dövlətlərin, imperiyaların tərkibində yaşamışdır. Ancaq biz milli mənsubiyyətimizi, adət-ənənələrimizi qorumuşuq. Nəyə görə?! Ona görə ki, biz həmişə öz dəyərlərimizə bağlı olmuşuq və bugünkü gənclər daim bu məsələyə çox böyük diqqət yetirsinlər. Azərbaycan dəyərləri bizim üçün ən başlıca dəyərlərdir", - deyən dövlətimizin başçısı tövsiyə etdi ki, Azərbaycan gəncləri mütləq milli ruhda tərbiyə almalıdırlar ki, gələcəkdə dövlət maraqlarını, xalqımızın milli maraqlarını layiqincə qoruya bilsinlər. Gənclərimiz ölkə Prezidentinin tövsiyələrinə, qarşıya qoyduğu vəzifələrə layiqincə əməl etməlidirlər".**

### GƏNCLƏRİMİZ SOSİAL ŞƏBƏKƏLƏR VASİTƏSİLƏ ÖLKƏMİZƏ QARŞI QARAYAXMA KAMPANİYASI APARAN DAİRƏLƏRƏ TUTARLI CAVAB VERİRLƏR

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın böyük uğurlara imza atdığını deyən F.Nəbiyevin sözlərinə görə, çoxsaylı uğurlarımız müəyyən dairələri narahat edir: **"Onlar xaricdən idarə olunurlar. Xaricdə erməni lobbisinin maliyyəsi ilə fəaliyyət göstərən anti-azərbaycançı mərkəzlər və onların əlində alət olan "sapı özümüzdən olan baltalar" Azərbaycana qarşı qarayaxma kampaniyası aparırlar. Bu istiqamətdə sosial şəbəkələrdən çox istifadə edirlər. Sağlam ruhlu gənclərimiz onlara tutarlı cavablar verirlər. Bilirsiniz ki, sosial şəbəkələr gənclərin həyatının bir hissəsinə çevrilib. Gənclərimiz hər zaman ayıq-sayıqdır və onlar ölkəmizin haqq səsini müdafiə edirlər, anti-azərbaycançı mərkəzlərin, radikal müxalifətin böhtanlarına, yaydıqları dezinformasiyalara qarşı faktlarla cavab verirlər. Bu dairələr yalan məlumatlarla, qarayaxma kampaniyası ilə ictimai rəyi manipulyasiya etmək istəyirlər. Amma gənclərimiz ayıq-sayıqlığı ilə bunun qarşısını alırlar".**

F.Nəbiyev hesab edir ki, Azərbaycan cəmiyyəti yetkin cəmiyyətdir və gənclər cəmiyyətimizin aparıcı qüvvəsidir. Ona görə də gənclər Prezident İlham Əliyevin ətrafında sıx birləşərək ölkəmizin inkişafına öz töhfələrini verirlər.

**Nardar BAYRAMLI**

# <u>Nazirlik rəsmisi</u>: Vergi ombudsmanı vergiödəyicilərinin hüquqlarını müdafiə edəcək

Vergiödəyicilərinin hüquqlarının daha etibarlı qorunmasını təmin etmək məqsədilə vergilər nazirinin əmri ilə Vergilər Nazirliyində Vergi Ombudsmanı İnstitutu yaradılıb.

AZƏRTAC xəbər verir ki, bu barədə mayın 3-də Vergilər Nazirliyində kütləvi informasiya vasitələri üçün keçirilən brifinqdə vergilər nazirinin müşaviri Elçin Məmmədov deyib.

O, mövcud beynəlxalq təcrübəyə əsaslanmaqla Azərbaycanda Vergi Ombudsmanı İnstitutunun yaradılması və fəaliyyətə başlaması barədə məlumat verib. Bildirib ki, Vergi Ombudsmanı İnstitutu vergiödəyicilərinin müraciətlərinin məhkəmə müstəvisinə çıxmadan çevik həllinə nail olacaq və vergi orqanları ilə münasibətlərin qarşılıqlı əməkdaşlıq formasında tənzimlənməsinə kömək göstərəcək.

Qeyd olunub ki, vergilər nazirinin növbəti əmri ilə bu günlərdə vergi ombudsmanının fəaliyyət istiqamətlərini, hüquq və vəzifələrini müəyyən edən "Vergi ombudsmanı haqqında Əsasnamə" təsdiq edilib. Həmin əmrlə vergilər nazirinin müşaviri Elçin Məmmədov vergi ombudsmanı təyin olunub.

Bildirilib ki, apellyasiya kommunikasiyalarının çoxluğu sahibkarın müraciətlərinə və şikayətlərinə ədalətli baxılması imkanlarını artırır. Vergi Ombudsmanı İnstitutunun yaradılması ilə vergiödəyiciləri ilə üfüqi əməkdaşlıq platforması genişləndirilib və vergiödəyiciləri yeni bir apellyasiya mexanizmi əldə ediblər.

E.Məmmədov qeyd edib ki, Vergilər Nazirliyinin əsas məqsədi vergi ödəyicilərinin baxılmamış, ədalətli araşdırmaya cəlb edilməmiş hər hansı müraciətinin qalmamasıdır. Ombudsman bu işdə onlara yardım edəcək, hüquqi müdafiəsini təmin edəcək, müraciətlərə ədalətli baxılması mövqeyindən çıxış edəcək. Bu, həmçinin vergi əməkdaşlarının qəbul etdikləri qərarlara görə məsuliyyət daşımasına da böyük təsir göstərəcək.

Brifinqdə vergi ombudsmanının hüquq və vəzifələri, fəaliyyət istiqamətləri haqqında da məlumat verilib. Bildirilib ki, vergi ombudsmanı vergilər nazirinin əmri ilə təyin edilən, bilavasitə nazirə tabe olan və ona hesabat verən şəxsdir. Ombudsmanın əsas fəaliyyət istiqaməti vergiödəyicilərinin hüquqlarının pozulmasının qarşısının alınması və pozulmuş hüquqların bərpasıdır.

Brifinqdə KİV nümayədələrinin sualları cavablandırılıb.

# Şəki-Zaqatala bölgəsində onkoloji xəstəliklərin erkən diaqnostikası məqsədilə profilaktik tibbi müayinələr aparılır









Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Milli Onkologiya Mərkəzinin (MOM) və Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin (RİİB) birgə təşkilatçılığı ilə onkoloji xəstəliklərin erkən diaqnostikası məqsədilə ölkənin şimal-qərb bölgəsində əhali arasında skrininq proqramına uyğun olaraq aprelin 26-dan ödənişsiz profilaktik tibbi müayinələr aparılır.

AZƏRTAC xəbər verir ki, Milli Onkologiya Mərkəzinin aparıcı həkim və mütəxəssislərinin cəlb edildiyi tədbirin əsas məqsədi şişönü və şiş xəstəliklərini erkən müayinə vasitəsilə aşkar edərək, vaxtında müalicəsini aparmaqdır. Bu məqsədlə bölgəyə Bakı şəhərindən səyyar mammoqrafiya, ultrasəs və rentgen müayinəsi avadanlıqları gətirilib.

Skrininq proqramı çərçivəsində MOM-un səyyar həkim briqadaları aprelin 26-27-də Balakən rayonunda, aprelin 28-29-da Zaqatala şəhərində, 30 aprel-1 may tarixində isə Qax rayonunda olublar. Bu müddət ərzində böyük növbələrlə müşahidə edilən tədbir zamanı, ümumilikdə, 2842 nəfər onkoloji müayinədən keçib, onlardan 49-da şiş xəstəliyinə şübhə simptomları aşkarlanıb.

Mayın 3-də Şəki Şəhər Mərkəzi Xəstəxanasında onkoloji xəstəliklər müəyyən edilmiş xəstələr üzərində Milli Onkologiya Mərkəzinin əməkdaşları tərəfindən onkoloji əməliyyatlar aparılıb.

Bu gün Şəkidə Heydər Əliyev Mərkəzində "Bədxassəli şişlərin diaqnostika və müalicəsinə müasir yanaşma" mövzusunda elmi-praktik konfrans keçiriləcək. Konfransın proqramına uyğun olaraq, MOM-un bölgədə səyyar müayinələrdə olan tibb heyəti yerli həkimlərə və mütəxəssislərə ən yeni tibbi protokollar və müalicə üsulları barədə geniş məlumatlar verəcəklər. Konfransın proqramında Şəki, Ucar, Göyçay, Ağdaş, Mingəçevir, İsmayıllı, Yevlax, Qəbələ, Oğuz, Zaqatala, Balakən rayonlarında çalışan yerli tibb nümayəndələri ilə MOM əməkdaşlarının onkoloji xəstəliklərin diaqnostikası və müalicəsi ilə bağlı geniş fikir mübadiləsinin və diskussiyaların aparılması da nəzərdə tutulur.

Şəki-Zaqatala bölgəsində əhali arasında skrininq proqramı davam edir.

# Bu dəfə radikal müxalifətin önündə başına kəfən salmış qisasçı qoca gedəcək

*Yaxud Əli İnsanovun qisasçılıq siyasətini xaricdəki anti-azərbaycançı qüvvələr sifariş edirlər*




Bu bir həqiqətdir ki, həyata keçirilən məqsədyönlü siyasət nəticəsində bütün sahələrdə inkişafın əldə edildiyi Azərbaycan eyni zamanda dünyada demokratik ənənələrə hörmət göstərən, vətəndaş cəmiyyətinin inkişafını təmin edən, tolerantlıq nümunəsi sayılan ölkə olaraq tanınır. Əldə edilən bütün uğurların təməlində isə xalq-iqtidar birliyi durur. O da xüsusi olaraq qeyd edilməlidir ki, yerləşdiyi regionda siyasi-iqtisadi aktora çevrilmiş Azərbaycanda xalqın sosial problemlərinin həlli, rifah halının yaxşılaşdırılması istiqamətində davamlı addımlar atılır, islahatlar həyata keçirilir. Öz ambisiyalarının qurbanına çevrilmiş, şəxsi məqsədləri üçün "çarpışan" radikal ünsürlər isə pafoslu yalanlarla ictimai rəyi çaşdırmağa, manipulyasiya etməyə çalışırlar. Və görünən odur ki, ölkə Prezidentinin əfvi sayəsində azadlığa çıxmış Əli İnsanov da radikal ünsürlərin cərgəsinə qoşulmaq üçün can-dildən "qollarını çırmamağa" niyyətlənib.

Belə ki, həbsdən çıxan gündən antimilli mərkəzlərin diqqətini cəlb etmək üçün "Qərb-Qərb" deyib dad döyən Ə.İnsanov bir neçə gün öncə KİV-ə verdiyi müsahibədə öz "məqsədlərini" bir daha açıqlayıb. Özünü "gözünü qan örtmüş siyasətçi" qiyafəsində qələmə verməyə çalışan bu şəxs birmənalı olaraq qisasçı mövqedən çıxış etdiyini bütün parametrlər üzrə ortaya qoyub. Daha dəqiq desək guya radikal kəsimin addabudda 3-5 nəfərlik qohum-əqrəba partiyalarını özünə tərəf çəkmək, ən əsası isə, xarici anti-azərbaycançı dairələrin diqqətini və maliyyəsini əldə etmək üçün pafosa güc verən Ə.İnsanov bir daha öz kimliyini cəmiyyətə nümayiş etdirib. Vurğulamaq yerinə düşər ki, "başına kəfən salmış qisasçı qoca" libasında özünü gözə soxmaq istəyən Ə.İnsanovun bütünlüklə qisasa kökləndiyi onun bütün fikirlərində bariz şəkildə öz əksini tapır. Bu adam anlamır ki, onun tutduğu mövqe, yəni "hər kəsdən və hamıdan qisas almaq" missiyası fəlakətə apara bilər. Bu adam açıq şəkildə öz mənafeyinə və qisasçılıq hissinə qapılaraq insanları yeni vətəndaş qarşıdurmasına sürükləməyə çalışır. Özünü radikal müxalifətin sıralamasında ön cərgəyə pərçimləməyə çalışan bu qoca öz anlamında "bu dəfə radikal müxalifətin önündə başına kəfən salmış qisasçı gedəcək" parafrazını ictimai rəyə sırımağa niyyətlənib.

Beləliklə, yaşına görə "müdrikləşmə mərhələsində" olmalı olan Ə.İnsanov, göründüyü kimi, tamam əks mövqedən çıxış edir. Bu cür mövqe isə insanları yeni bir fəlakətə doğru sürükləmək deməkdir. Necə deyərlər, müdrik qocalar sülh və barış, qisascı qocalarsa qarşıdurma və fəlakət gətirirlər. İndiki halda Əli İnsanovun qisasçı arzuları da məhz qarşıdurma və fəlakətlərə yol açmaq üçün deyilən fikirlərdir. Ən əsası isə, bu bir aksiomdur ki, qisasçı siyasət fəlakət gətirər.

Bəli, göründüyü kimi maddi gəlir əldə etmək üçün xarici anti-azərbaycançı dairələrin, ermənipərəst mərkəzlərin direktivlərini özünün "fəaliyyət planı"na çevirməyə, həmin dairələrin sifarişi ilə qisasçılıq siyasəti yürütməyə çalışan bu qisasçı qoca da digər satqın ünsürlərin yolu ilə gedir. Belə ki, qisasçılığa hədəflənən "siyasi xətt"i özünə "yol" deyə seçməyə niyyətlənmiş başına kəfən keçirmiş qisasçı qoca siyasi mübarizənin sivil qaydalarından deyil, təxribat xarakterli yollardan istifadə etməyə çalışır. Məhz təxtibata, stabilliyi pozmağa yönəlik fikirləri qarşılığında da o, açıq şəkildə yalvardığı antimilli xarici mərkəzlərin istinad mənbəyinə çevrilmək və ermənilərlə birlikdə xalqdan qisas almaq missiyasına yiyələnmək niyyətindədir.

Amma onun bu niyyəti də, necə deyərlər, "daşa dəyəcək". Çünki ölkəmizdə onun kimi xalqa yalan deyən, pafosa güc verib xarici ermənipərəstlərin dili ilə danışanların aqibəti göz önündədir. Bu gün özünü "siyasi qüvvə" kimi qələmə verməyə çalışan həmin xəyanətkar qrupun xalq tərəfindən dəstəklənmədiyi hər kəsə bəllidir. Bu baxımdan da, qisasçı missioner qoca qiyafəsində "zühur" etməyə çalışan Ə.İnsanovun da eyni fiaskonu yaşayacağını indidən proqnozlaşdırmaq elə də çətin deyil.

**Pərviz SADAYOĞLU**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə “Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi” istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

# Azərbaycanda regional sənaye quruculuğuna hər cür dəstək göstərilir

*Təkcə cari ilin birinci rübündə ölkə üzrə fəaliyyət göstərən sənaye parklarına 540 milyon manat sərmayə yönəldilib*



Azərbaycan yeni şəraitdə milli iqtisadiyyatda sənaye istehsalının həcmini artırmağı hədəfləyib. Buna nail olmaq üçün ölkədə neftdən kənar iqtisadiyyat üzrə innovativ əsaslı sənaye quruculuğu, o cümlədən də dəyər zəncirində əsas həlqələri özündə birləşdirən sənaye parklarının və məhəllələrinin yaradılması dövlət tərəfindən həm siyasi, həm də maddi cəhətdən dəstəklənir. Son illərdə respublikamızda Prezident İlham Əliyevin siyasi iradəsi əsasında uğurla həyata keçirilən yeni islahatların bir qismi də məhz sənaye quruculuğunun təşviq edilməsinə, bu sektora investisiya qoyuluşunun artırılmasına hesablanıb.

Öz növbəsində həyata keçirilən məqsədyönlü tədbirlər müsbət nəticələr verir. Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında da vurğulandığı kimi, ilin əvvəlindən bəri iqtisadiyyatımızda ən yaxşı inkişaf göstəriciləri qeyri-neft sənayesində əldə olunub. O cümlədən ölkə üzrə bu sektora investisiya qoyuluşu artıb. Cari ilin birinci rübündə ölkədə fəaliyyət göstərən sənaye parklarına 540 milyon manat investisiya yönəldilib. Bütövlükdə indiyədək sənaye parklarına 60 rezident tərəfindən yatırılan investisiyanın həcmi 3 milyard dolları ötüb. Nazirlər Kabinetinin bəhs olunan iclasındakı nitqində ölkəmizdə qeyri-neft sənayesində istehsal həcmlərinin yüksək sürətlə artmasından məmnunluğunu bildirən Prezident İlham Əliyev vurğulayıb: **“İqtisadi və sosial sahədə aparılan siyasət rəqəmlərdə də özünü büruzə verir. Beləliklə, ilin birinci rübündə ümumi daxili məhsul 3 faiz artmışdır. Bu, son bir neçə il ərzində ən yüksək göstəricidir və əminəm ki, ilin sonuna qədər bu rəqəm daha da artacaq. Çünki görülən işlər bunu deməyə əsas verir. Sənaye istehsalı 4,4 faiz artmışdır. Bu da yaxşı göstəricidir. Amma bundan daha yaxşı göstərici odur ki, qeyri-neft sektorunda sənaye istehsalı 15,6 faiz artmışdır. Bax, gördüyümüz işlərin nəticəsi budur və sənaye istehsalının, xüsusilə qeyri-neft sektorunda sənaye istehsalının artırılması bizim siyasətimizin bariz nümunəsidir”.**

## ÖLKƏDƏ REGİONAL SƏNAYE QURUCULUĞUNA DİQQƏT ARTIB

Azərbaycanın yeni sənaye quruculuğunda diqqəti çəkən əsas məqamlardan biri odur ki, son vaxtlarda ölkədə regional sənaye quruculuğuna diqqət artıb və bu prosesə hər cür dəstək göstərilir. İnvestorlar 2003-cü ildən bəri dövlət əsaslı vəsait qoyuluşu hesabına regionların infrastruktur təminatının möhkəmlənməsindən bəhrələnərək bölgələrdə müxtəlif təyinatlı sənaye istehsalatlarının yaradılmasına məmnuniyyətlə sərmayələr yönəldirlər. Yeni sənaye müəssisələri yaradılarkən bölgələrin ənənələri, xammal potensialı, satış bazarları kimi mühüm məqamlar nəzərə alınır. Bütövlükdə, perspektivdə ölkə üzrə Bakıdan başqa, daha üç bölgədə (Sumqayıt, Gəncə və Mingəçevirdə) sənaye mərkəzlərinin yaradılması nəzərdə tutulub.

Beləliklə, son illərdə ölkəmizin sənaye xəritəsi bölgələrdə yaradılan istehsalatlar hesabına əhəmiyyətli dərəcədə zənginləşib. 2018-ci ildə Mingəçevir Sənaye Parkında iplik istehsalı üzrə 2 müəssisə - pambıq-poliester və “Open End” üsulu ilə iplik istehsalı fabrikləri istifadəyə verilib, 750 iş yeri açılıb. İnvestisiya dəyəri 144 mln. manat olan fabriklərin yaradılmasına 10 mln. manat güzəştli kredit verilib. Müasir texnologiyalar əsasında qurulmuş fabriklər Almaniya, İsveçrə, İspaniya və Yaponiyanın aparıcı şirkətlərinin avadanlığı ilə təchiz edilib. Fabriklərdə pambıq mahlıcından ildə 20 min ton iplik istehsal olunacaq.

Regionlarda sənaye məhəllələrinin təşkili də ölkə üzrə iqtisadi aktivliyin artmasına öz müsbət təsirini göstərir.

Qeyd edək ki, respublikamızda ilk sənaye məhəlləsi 2017-ci ildə Neftçalada istifadəyə verilib. 2018-ci ildə Neftçala Sənaye Məhəlləsində “Azərmaş” ASC və “İran Khodro” şirkətlərinin birgə yaratdığı “Xəzər” avtomobil zavodu işə salınıb. Dəyəri 15 milyon ABŞ dolları və səhmlərinin 75 faizi “Azərmaş” ASC-yə, 25 faizi isə “İran Khodro” şirkətinə məxsus olan avtomobil zavodunda İran İslam Respublikasının və Avropanın aparıcı ölkələrinin müasir texnologiyaları əsasında müxtəlif avtomobil modelləri istehsal olunur. Müəssisədə ilkin mərhələdə ildə 10 min avtomobilin istehsalı nəzərdə tutulub. Sonrakı fazada avtomobillərin istehsalının ildə 15 minə çatdırılması və gələcəkdə bu rəqəmin ildə 50 minədək artırılması planlaşdırılır. İstehsal olunan avtomobillər “Avro 5” standartlarına tam uyğundur.

Ötən il açılan və kiçik və orta sahibkarlığın inkişafında əhəmiyyətli rolu olan Masallı Sənaye Məhəlləsində hazırda 10 müəssisə fəaliyyət göstərir. Sənaye Məhəlləsinə sahibkarlar tərəfindən 5,3 milyon manat investisiya yatırılıb və 200-dən çox iş yeri açılıb. Hacıqabul Sənaye Məhəlləsində tikinti-quraşdırma işləri başa çatdırılıb, Sabirabad Sənaye Məhəlləsində isə tikinti işləri davam etdirilir.

Ümumilikdə, indiyədək istifadəyə verilən 2 sənaye məhəlləsinə 50 milyon manatdan çox özəl investisiya yatırılıb, 700-dək iş yeri yaradılıb. Digər 2 sənaye məhəlləsinin istifadəyə verilməsi ilə açılan iş yerlərinin sayı 1800-ə çatacaq, 77 milyon manat özəl investisiya yatırılacaq. Prezident İlham Əliyevin tapşırığına əsasən, ölkəmizin digər regionlarında da sənaye zonalarının təşkili istiqamətində araşdırmalar aparılır. Bu il Naxçıvan Muxtar Respublikasında Şərur Sənaye Məhəlləsinin yaradılmasına başlanılacaq.

## SUMQAYIT KİMYA SƏNAYE PARKININ REZİDENTİ OLAN İNŞAAT KİMYƏVİLƏRİ ZAVODUNUN YENİ MƏHSULLARININ TƏQDİMATI KEÇİRİLİB

Ölkəmizdə Prezident İlham Əliyevin 2011-ci il 21 dekabr tarixli Fərmanı əsasında təşkil olunan Sumqayıt Kimya Sənaye Parkı respublikamızda yaradılan ilk və ən böyük sənaye parkıdır. Parkın 508 hektarlıq ümumi ərazisinin 450 hektarı sənaye zonasıdır. Artıq burada 75 faiz məskunlaşma qeydə alınıb. Burada qeydə alınan rezidentlərin layihələrinin investisiya dəyəri 2,8 milyard dollardır ki, bunun da 2,2 milyard dolları artıq layihələrə yatırılıb. Hazırda Sumqayıt Kimya Sənaye Parkının ərazisində yeni istehsalatların yaradılması istiqamətində işlər uğurla davam etdirilir.

Bir qədər bundan əvvəl isə Sumqayıt Kimya Sənaye Parkının rezidenti olan İnşaat Kimyəviləri Zavodunun yeni məhsullarının təqdimatı keçirilib. Tədbirdə İqtisadiyyat Nazirliyinin “Sumqayıt Kimya Sənaye Parkı” MMC-nin direktoru Nazim Talıbov sənaye parkları, burada rezidentlər üçün yaradılmış əlverişli şərait, müasir infrastruktur barədə məlumat verib, rezidentlərin 7 il müddətinə mənfəət, əmlak və torpaq vergilərindən, eyni zamanda, parka istehsal məqsədilə gətirilən texnika, texnoloji avadanlıqlar və qurğulara görə əlavə dəyər vergisindən və gömrük rüsumundan azad olunduğunu qeyd edib. Nazim Talıbov Sumqayıt Kimya Sənaye Parkında görülən işlər, aparılan ekoloji normallaşdırma tədbirləri və parkda yerləşən müəssisələr barədə məlumat verib. Bildirilib ki, indiyədək parkın 18 rezidenti qeydiyyata alınıb və bunlardan da 13-ü artıq istehsal fəaliyyətinə başlayıb. Daha 4 müəssisənin isə 2019-cu il ərzində istifadəyə verilməsi nəzərdə tutulub. Sumqayıt Kimya Sənaye Parkında SOCAR Polymer, Karbamid Zavodu, STP, polad boru, vərəqə şüşə istehlası zavodları kimi ölkə miqyaslı iri layihələr icra edilir və hazırda sənaye parkında təqribən 6 min nəfər işlə təmin olunub.

İnşaat Kimyəviləri Zavodunun baş direktoru Adəm Yayla müəssisənin fəaliyyəti barədə məlumat verərək bildirib ki, zavod 1910-cu ildə yaradılan və dünyanın 100-ə yaxın ölkəsində müəssisələri fəaliyyət göstərən İsveçrənin şirkətlər qrupuna daxildir. Son 18 ildə şirkətə dünya miqyasında beton konstruksiyalarının təmiri ilə bağlı 100-ə qədər layihənin icrası həvalə olunub. Şirkətin fəaliyyət istiqamətlərinə struktur birləşdirmə, birbaşa şüşələmə, akustik və gücləndirici sistemlər, avtomobillərə xidmət, o cümlədən avtomobil şüşələrinin əvəzlənməsi, avtomobil gövdəsinin təmiri, dəniz gəmiləri, sənaye laminasiyası, texnika, bərpa olunan enerji və fasad mühəndisliyi sahələri daxildir. Zavodun məhsullarının əsas tətbiq sahələri enerji və sənayenin bir çox sahələrini əhatə edir. Yerli xammaldan istifadə edilərək istehsal edilən məhsullar Rusiyaya, Qazaxıstana, Özbəkistana, Qırğızıstana və Gürcüstana ixrac edilir.

Sonra İnşaat Kimyəviləri Zavodunun istehsal etdiyi su izolyasiyası, dam örtükləri, yapışdırıcı, germetiklər və s. yeni məhsulların təqdimatı olub, müəssisənin fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

## AZƏRBAYCANDAN İXRAC OLUNAN SƏNAYE MƏHSULLARININ HƏCMİ VƏ ÇEŞİDİ ARTIR

Son illərdə Azərbaycanda həyata keçirilən islahatlar çərçivəsində həmçinin ixracın səmərəli təşviq mexanizmi işə salınıb. Bu mexanizmə əsasən xarici bazarlara məhsul çıxaran istehsalçılara müəyyən həcmlərdə ixrac təşviqi vəsaiti ödənilir. Bundan başqa, “Made in Azerbaijan” brendi yaradılıb və yüksək rəqabət qabiliyyətinə malik olan məhsullarımız bu brend altında satış bazarlarına, beynəlxalq sərgilərə çıxardılır.

Öz növbəsində respublikamızda ixracın genişləndirilməsinə nail olmaq üçün hüquqi və praktiki müstəvidə həyata keçirilən tədbirlər öz müsbət nəticəsini verir. Əlamətdar haldır ki, respublikamızın ixracı əsasən qeyri-neft sektorunda, o cümlədən də sənaye sektorunda buraxılan məhsullarının hesabına genişlənir. Görülmüş tədbirlər nəticəsində 2018-ci ildə ölkəmizdən qeyri-neft ixracı 9,8 faiz, o cümlədən sənaye məhsullarının ixracı 6,2 faiz, xarici ticarət fəaliyyəti ilə məşğul olan sahibkarlıq subyektlərinin sayı 56,2 faiz artıb. Bütövlükdə, ötən il Azərbaycandan 3088 çeşiddə məhsul ixrac edilib.

Respublikamızda qeyri-neft sektorundan ixracın təşviq edilməsi ilə bağlı tədbirlər 2019-cu ildə də davam etdirilir. Cari ildə 19 xarici ölkəyə 25 ixrac missiyasının həyata keçirilməsi, 11 beynəlxalq sərgidə Azərbaycan şirkətlərinin vahid ölkə stendi ilə təmsil olunması, eləcə də ixracla məşğul olan sahibkarlara maliyyə dəstəyinin daha da gücləndirilməsi nəzərdə tutulub.

(davamı növbəti sayımızda)

**Mübariz ABDULLAYEV**

# Dövlət Təhlükəsizliyi Xidməti “Heydər zirvəsi”nə yürüş təşkil edib










Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96 illiyi münasibətilə Dövlət Təhlükəsizliyi Xidməti (DTX) “Heydər zirvəsi”nə yürüş təşkil edib.

DTX-nin ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, “Heydər zirvəsi”nə yürüşdə Dövlət Təhlükəsizliyi Xidmətinin və Dövlət Sərhəd Xidmətinin əməkdaşları iştirak ediblər.

Yürüş iştirakçıları əvvəlcə Fəxri xiyabana gələrək Ulu Öndər Heydər Əliyevin unudulmaz xatirəsini ehtiramla yad edib və məzarı önünə gül dəstələri düzüblər.

Sonra Bakı şəhərindən müstəqil Azərbaycanın banisi və qurucusu Heydər Əliyevin adını daşıyan, Böyük Qafqazın Başdağ silsiləsinin Qızıl Qaya massivində yerləşən və hündürlüyü 3751 metr olan “Heydər zirvəsi”nə yürüşə başlanılıb.

Yürüş Böyük Qafqazın Başdağ silsiləsinin Qızıl Qaya massivinin ətəklərində davam edib, ərazidə düşərgə salınıb.

Qarlı-şaxtalı hava şəraitinə baxmayaraq, yürüş iştirakçıları tam heyətdə mayın 2-də “Heydər zirvəsi”nə qalxaraq Ümummilli Liderin əziz xatirəsini yad edib və zirvədə Azərbaycanın dövlət bayrağını ucaldıblar.

# “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət istifadəyə verilib









Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən, təmirsiz həyətlərin abadlaşdırılmasına yönəlmiş “Bizim həyət” layihəsi uğurla davam edir.

IDEA İctimai Birliyindən AZƏRTAC-a bildiriblər ki, mayın 3-ü “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib. Yenilənmiş həyət Xətai rayonu, Naximov küçəsi 30 ünvanında 1500 nəfər sakinin yaşadığı binaları əhatə edir.

“Bizim həyət” layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Layihə çərçivəsində abadlaşdırılan növbəti həyətdə də əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması və gənclərin asudə vaxtlarının səmərəli keçirmələri məqsədilə ərazidə bir mini futbol meydançası, şahmat meydançası, 8 idman qurğusu, uşaqlar üçün oyun meydançası və 15 oturacaq quraşdırılıb. Bu cür meydançaların salınmasında əsas məqsəd gənclərin sağlam həyat tərzi sürmələrinə, sağlamlıqlarını möhkəmlədirmələrinə, asudə vaxtlarını səmərəli keçirmələrinə, o cümlədən onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılmasına nail olmaqdır.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları və giriş hissələri də tam təmir olunaraq onların istifadəsinə verilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 50 ədəd ağac əkilib və 2000 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb.

Xətai rayonunda sakinlərin istifadəsinə verilmiş həyət layihə çərçivəsində abadlaşdırılan iyirmi ikinci həyətdir.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

# Bu yaz Xiaomi smartfonu əldə et, Azercell-dən hədiyyə qazan!

Ölkənin bütün bölgələrini yüksək sürətli mobil internetlə təmin etməyi hədəfləyən Azercell, müştərilərinin istifadəsinə yazın ən sərfəli fürsəti olan yeni smartfon kampaniyasını təqdim edir. Abunəçiləri üçün ən son texnologiyaları dəstəkləyən smartfonları daha da əlçatan etmək məqsədilə, yalnız iyun ayının 20-dək Azercell-dən Xiaomi smartfonu alan hər müştəriyə xüsusi hədiyyələr təqdim edilir. Belə ki, Xiaomi smartfonu əldə edən bütün Azercell Fakturasız Xətt abunəçilərinə ödənilən məbləğin 150 manatadək dəyəri keşbək olaraq 6 ay ərzində hissə-hissə nömrənin balansına qaytarılır. Azercell Fakturalı xətt abunəçilərinə isə Xiaomi smartfonu aldıqda, 6 ay ərzində aylıq 10GB həcmində mobil internet paketi nömrənin balansına hədiyyə olunur.




Bu yazın ən sərfəli kampaniyası Azercell-də! Azercell-dən ən son model Xiaomi smartfonunuz ilə bu yaz sevdiklərinizə bir zəng tək yaxın olmaq fürsətini qaçırmayın!

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4820
“Kapital Bank”ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
“AZƏRTAC”,
“Azadinform”, “SİA”
Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Buraxılışa məsul: Zahid İLHAMOĞLU